AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

# SOSİAL, İQTİSADİ İNKİŞAF

3

YANVAR-MART

Məlumatlardan istifadə edərkən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinad etmək lazımdır.

**Xüsusi işarələr:**

"-" hadisə baş verməmişdir

"..." məlumat mövcud deyil

"0,0" məlumat çox kiçik rəqəmlə xarakterizə olunur

"x" müqayisə mümkün deyil

**İzahlar:**

-cari ilə dair məlumatlar növbəti dəqiqləşdirilmiş statistik hesabatlar əsasında sonrakı nəşrlərdə korrektə edilə bilər

-bəzi hallarda yekunla toplananların cəmi arasındakı fərq rəqəmlərin yuvarlaqlaşdırılması ilə izah olunur

-bu nəşrdə əvvəlki dövrlərə dair məlumatlarla əvvəlki nəşrlərdə həmin dövrlərə aid məlumatlar arasındakı bəzi fərqlər beynəlxalq praktikaya uyğun olaraq yekun statistik hesabatlar əsasında ilkin məlumatlarda aparılmış dəqiqləşdirmələrlə izah olunur

# M Ü N D Ə R İ C A T


| | | |
|---|---|---|
| **I** | **MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR** | **5** |
| | **2024-cü ilin yanvar-mart aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri** | **5** |
| **II** | **REAL SEKTOR** | |
| | Ümumi daxili məhsul | 12 |
| | Sənaye | 15 |
| | Tikinti | 39 |
| | Kənd təsərrüfatı | 45 |
| | Nəqliyyat | 52 |
| | İnformasiya və rabitə | 57 |
| | İstehlak bazarı | 58 |
| | Əmtəə bazarı | 59 |
| | İctimai iaşə xidmətləri | 66 |
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | 68 |
| | Qiymət indeksləri | 72 |
| | Kredit qoyuluşları | 87 |
| | Məşğulluq və işsizlik | 89 |
| **III** | **DÖVLƏT SEKTORU** | |
| | Dövlət büdcəsi | 92 |
| **IV** | **XARİCİ SEKTOR** | |
| | Xarici ticarət | 97 |
| **V** | **İNSTİTUSİONAL DƏYİŞİKLİKLƏR** | |
| | Təsərrüfat subyektlərinin xarakteristikası | 108 |
| **VI** | **SOSİAL SEKTOR** | |
| | Əhalinin gəlirləri | 130 |
| | Əməkhaqqı | 131 |
| | Əhalinin əmanətləri və manatın məzənnəsi | 132 |
| | Demoqrafik vəziyyət | 134 |
| | **Metodoloji izahatlar** | **139** |

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**Məruzə № 3**
**15 aprel 2024-cü il**

# 2024-cü İLİN YANVAR-MART AYLARINDA ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

2024-cü ilin yanvar-mart aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 29,1 milyard manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,0 faiz çox **ümumi daxili məhsul** istehsal edilmişdir. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 0,4 faiz, qeyri neft-qaz sektorunda isə 6,7 faiz artmışdır.

Əlavə dəyərin 39,3 faizi sənaye, 9,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,9 faizi tikinti, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrində, 20,4 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 10,9 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 2856,5 manata bərabər olmuşdur.

**Sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2024-cü ilin yanvar-mart aylarında 15,7 milyard manatlıq sənaye məhsulu istehsal edilmiş, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı 0,2 faiz, qeyri neft-qaz sektorunda isə 7,8 faiz artmışdır.

Sənaye məhsulunun 64,5 faizi mədənçıxarma sektorunda, 29,0 faizi emal sektorunda, 5,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 6,0 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 5,4 faiz artmışdır.

Emal sektorunda metallurgiya sənayesi məhsullarının istehsalı 49,7 faiz, mebel istehsalı 39,0 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 37,3 faiz, tikinti materiallarının istehsalı 34,4 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 26,2 faiz, içkilərin istehsalı 24,5 faiz, geyim istehsalı 21,1 faiz, elektrik avadanlıqlarının istehsalı 16,8 faiz, kimya sənayesi məhsullarının istehsalı 16,7 faiz, tütün məmulatlarının istehsalı 15,6 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 9,0 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 7,9 faiz, neft məhsullarının istehsalı 5,4 faiz, kağız və karton istehsalı 2,0 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 1,3 faiz, əczaçılıq məhsullarının istehsalı 0,9 faiz artmış, hazır metal məmulatlarının istehsalı 0,1 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 0,4 faiz, qida məhsullarının istehsalı 2,6 faiz, poliqrafiya məhsullarının istehsalı 4,0 faiz, maşın və avadanlıqların istehsalı 19,5 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 16,3 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 45,1 faiz, sair sənaye məhsullarının istehsalı isə 46,9 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 5,2 faiz azalmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 6,6 faiz artmışdır.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 aprel 2024-cü il vəziyyətinə 961,4 milyon manatlıq hazır məhsul olmuşdur.

**Kənd təsərrüfatında** 2024-cü ilin yanvar-mart aylarında diri çəkidə 139,2 min ton ət, 504,5 min ton süd, 571,7 milyon ədəd yumurta və 96,6 min ton tərəvəz istehsal olunmuşdur. 2023-cü ilin yanvar-mart ayları ilə müqayisədə ət istehsalı 0,6 faiz, süd istehsalı 0,6 faiz, yumurta istehsalı 5,2 faiz, tərəvəz istehsalı 2,7 faiz artmışdır.

2023-cü ilin yanvar-mart ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 1,1 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 1,0 faiz, bitkiçilik məhsulları istehsalı 2,9 faiz artmışdır.

2024-cü ilin yanvar-mart aylarında **əsas kapitala** 3809,2 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,0 faiz çox investisiya yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 2,7 faiz, qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 4,8 faiz artmışdır. İstifadə olunmuş investisiyanın 2122,6 milyon manatı və ya 55,7 faizi məhsul istehsalı sahələrinə, 1453,1 milyon manatı (38,2 faizi) xidmət sahələrinə, 233,5 milyon manatı (6,1 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 3024,8 milyon manatını və ya 79,4 faizini daxili investisiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 2681,9 milyon manatı və ya 70,4 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2024-cü ilin yanvar-mart aylarında 54,6 milyon ton **yük** və 452,9 milyon **sərnişin** daşınmışdır. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 4,7 faiz, sərnişin daşınması isə 6,9 faiz artmışdır. Yüklərin 55,7 faizi avtomobil, 32,4 faizi boru kəməri, 8,2 faizi dəmir yolu, 3,5 faizi dəniz, 0,2 faizi isə hava nəqliyyatı ilə daşınmışdır. Sərnişinlərin 87,6 faizi avtomobil, 11,8 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**İnformasiya və rabitə** müəssisələri tərəfindən göstərilmiş 766,4 milyon manatlıq xidmətlərin 74,1 faizi əhali sektoruna aid olmuşdur. 2024-cü ilin yanvar-mart aylarında göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,4 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 83,5 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür

2024-cü ilin yanvar-mart aylarında **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 13474,2 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 2827,4 milyon manatlıq **ödənişli**

**xidmət** göstərilmişdir. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 3,1 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 5,8 faiz artmış, ticarət şəbəkəsində 7543,6 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 5930,6 milyon manatlıq qeyri-ərzaq malları satılmışdır.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2024-cü ilin yanvar-fevral aylarında ölkənin **xarici ticarət** dövriyyəsi 6428,2 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 3981,6 milyon dollarını və ya 61,9 faizini ölkədən ixrac olunmuş məhsulların, 2446,6 milyon dollarını (38,1 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 1535,0 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2023-cü ilin yanvar-fevral ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 23,5 faiz, real ifadədə 15,0 faiz, o cümlədən idxal 19,9 faiz, ixrac isə 12,7 faiz azalmışdır.

2024-cü ilin yanvar-fevral aylarında qeyri neft-qaz məhsullarının ixracı 2023-cü ilin yanvar-fevral aylarına nisbətən faktiki qiymətlərlə 30,1 faiz, real ifadədə 36,9 faiz azalaraq 455,0 milyon dollar təşkil etmişdir.

2024-cü ilin yanvar-mart ayılarında **istehlak qiymətləri indeksi** 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 101,0 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 99,7 faiz, qeyri-qida malları üzrə 101,4 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 102,5 faiz təşkil etmişdir.

2024-cü ilin yanvar-fevral aylarında muzdlu işçilərin **orta aylıq nominal əməkhaqqı** 2023-cü ilin müvafiq dövrünə nisbətən 10,8 faiz artaraq 946,8 manata çatmışdır.

2024-cü ilin yanvar-mart aylarında **əhalinin gəlirləri** nominal ifadədə 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,0 faiz artaraq 19,4 milyard manat olmuşdur.

Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən 2024-cü ilin yanvar-mart aylarında **dövlət büdcəsinə** 9234,3 milyon manat vəsait daxil olmuş, büdcədən 8412,6 milyon manat vəsait

xərclənmiş, büdcənin icrasında 821,7 milyon manatlıq profisit yaranmışdır.

Mərkəzi Bankın məlumatlarına görə, 2024-cü il mart ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının **kredit portfeli** milli valyuta ekvivalentində 24629,1 milyon manat təşkil etmiş, onun 20615,8 milyon manatı uzunmüddətli kreditlər olmuşdur. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 1,9 faizini təşkil etmişdir.

Əhalinin banklardakı **əmanətlərinin** milli valyuta ekvivalentində məbləği 2024-cü il mart ayının 1-nə 13267,2 milyon manat olmuşdur.

2024-cü ilin yanvar-mart aylarında milli valyutanın 1 ABŞ dollarına nisbətdə **orta məzənnəsi** 1,70 manata, 1 Avroya – 1,85 manata, 100 Türk lirəsinə – 5,50 manata, 100 Rusiya rubluna – 1,87 manata bərabər olmuşdur.

2024-cü ilin yanvar-fevral aylarında **əhalinin sayı** 6769 nəfər və ya 0,1 faiz artaraq 2024-cü il mart ayının 1-i vəziyyətinə 10187539 nəfərə çatmışdır.

Cədvəl 1

## MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| Göstəricinin adı | 2024-cü ilin yanvar-mart ayları, faktiki | 2024-cü ilin yanvar-mart ayları 2023-cü ilin yanvar-mart aylarına nisbətən, faizlə | Məlumat üçün 2023-cü ilin yanvar-mart ayları 2022-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi daxili məhsul, milyon manat** | **29 096,8** | **104,0** | **100,4** |
| o cümlədən qeyri neft-qaz ÜDM | 18 699,0 | 106,7 | 104,9 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **2 856,5** | **103,4** | **99,8** |
| **Sənaye məhsulu, milyon manat** | **15 731,8** | **100,9** | **96,8** |
| o cümlədən qeyri neft-qaz sənayesi | 4 399,2 | 107,8 | 104,7 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat** | **3 809,2** | **104,0** | **140,3** |
| o cümlədən qeyri neft-qaz sektoruna | 2 458,2 | 104,8 | 151,7 |
| ondan qeyri neft-qaz sənayesinə | 146,2 | 80,2 | 87,1 |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **1 444,6** | **101,1** | **103,4** |
| o cümlədən: bitkiçilik | 76,1 | 102,9 | 101,3 |
| heyvandarlıq | 1 368,5 | 101,0 | 103,5 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **54,6** | **104,7** | **106,4** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **452,9** | **106,9** | **122,8** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **766,4** | **110,4** | **117,8** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **13 474,2** | **103,1** | **103,0** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat** | **2 827,4** | **105,8** | **111,6** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **9 234,3** | **111,4** | **118,3** |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | **8 412,6** | **128,1** | **116,7** |
| **Dövlət büdcəsinin profisiti, milyon manat** | **821,7** | **x** | **x** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **19 408,1** | **105,0** | **115,2** |
| **Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat** | **1 905,4** | **104,5** | **114,5** |

…ardı

| A | 1 | 2 | 3 |
|---|---|---|---|
| **Əhalinin banklardakı əmanətləri, 2024-cü il 01 mart vəziyyətinə, milyon manat** | **13 267,2** | **111,5** | **118,6** |
| **Kredit qoyuluşları, 2024-cü il 01 mart vəziyyətinə, milyon manat** | **24 629,1** | **121,0** | **115,7** |
| o cümlədən vaxtı keçmiş kreditlər | 469,2 | 77,4 | 87,8 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **946,8*** | **110,8**** | **111,2***** |
| **İstehlak qiymətlərinin indeksi**[1] | **x** | **101,0** | **113,8** |
| **Əhalinin sayı, 2024-cü il 01 mart vəziyyətinə, min nəfər** | **10 187,5** | **100,5** | **100,6** |
| **Xarici ticarət dövriyyəsi**[2]**, milyon ABŞ $** | | | |
| **faktiki qiymətlərlə** | **6 428,2*** | **76,5**** | **107,1***** |
| **müqayisəli qiymətlərlə** | **x** | **85,0**** | **104,9***** |
| o cümlədən: **ixrac** | | | |
| faktiki qiymətlərlə | 3 981,6* | 69,2** | 98,0*** |
| müqayisəli qiymətlərlə | x | 87,3** | 102,9*** |
| ondan **qeyri neft-qaz ixracı** | | | |
| faktiki qiymətlərlə | 455,0* | 69,9** | 136,6*** |
| müqayisəli qiymətlərlə | x | 63,1** | 132,3*** |
| **idxal** | | | |
| faktiki qiymətlərlə | 2 446,6* | 92,3** | 134,2*** |
| müqayisəli qiymətlərlə | x | 80,1** | 110,8*** |

**Qeyd:**

* 2024-cü ilin yanvar-fevral ayları.

** 2024-cü ilin yanvar-fevral ayları 2023-cü ilin yanvar-fevral aylarına nisbətən.

*** 2023-cü ilin yanvar-fevral ayları 2022-ci ilin yanvar-fevral aylarına nisbətən.

[1] 2024-cü ilin mart ayı üzrə **illik** (2024-cü ilin mart ayı 2023-cü ilin mart ayına nisbətən) istehlak qiymətləri indeksi 100,4 faiz təşkil etmişdir.

[2] Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

## Ümumi Daxili Məhsul istehsalı

2024-cü ilin yanvar-mart aylarında ölkədə 29096,8 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,0 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,4 faiz, qeyri neft-qaz sektorunda isə 6,7 faiz artmışdır.

ÜDM istehsalının 39,3 faizi sənaye, 9,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,9 faizi tikinti, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 20,4 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,9 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 2856,5 manata bərabər olmuşdur.

Cədvəl 2

## Ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-mart | | 2024-cü ilin yanvar-mart ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə |
|---|---|---|---|
| | 2024 | 2023*) | |
| **Ümumi Daxili Məhsul** | **29096,8** | **30360,3** | **104,0** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 832,1 | 778,0 | 101,1 |
| Sənaye | 11442,5 | 14382,7 | 100,6 |
| o cümlədən:<br>mədənçıxarma sənayesi | 9194,9 | 12376,3 | 99,6 |
| emal sənayesi | 1810,7 | 1574,6 | 110,0 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 374,2 | 371,3 | 94,8 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 62,7 | 60,5 | 106,6 |
| Tikinti | 1730,6 | 1495,6 | 111,8 |
| Ticarət: nəqliyyat vasitələrinin təmiri | 2830,0 | 2733,6 | 103,2 |
| Nəqliyyat və anbar təsərrüfatı | 1989,9 | 1662,1 | 117,3 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 684,6 | 615,1 | 110,2 |
| İnformasiya və rabitə | 489,5 | 441,6 | 110,4 |
| Digər sahələr | 5921,7 | 5369,6 | 103,7 |
| **Məhsula və idxala xalis vergilər** | **3175,9** | **2882,0** | **108,4** |

*) 2023-cü ilin yanvar-mart aylarının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Cədvəl 3

## Neft-qaz və qeyri neft-qaz sektorlarında ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-mart | | 2024-cü ilin yanvar-mart ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə |
|---|---|---|---|
| | 2024 | 2023*) | |
| **Ümumi Daxili Məhsul** | **29096,8** | **30360,3** | **104,0** |
| o cümlədən: | | | |
| neft-qaz sektoru | 10397,8 | 13354,3 | 100,4 |
| qeyri neft-qaz sektoru | 18699,0 | 17006,0 | 106,7 |

*) 2023-cü ilin yanvar-mart aylarının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Qrafik 1



# Sənaye

2024-cü ilin yanvar-mart aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 15,7 milyard manatlıq sənaye məhsulu istehsal edilmiş, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı 0,2 faiz, qeyri neft-qaz sektorunda isə 7,8 faiz artmışdır.

Sənaye məhsulunun 64,5 faizi mədənçıxarma, 29,0 faizi emal, 5,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 80,9 faiz olmuşdur. Ümumi istehsalın 89,3 faizi sənaye məhsullarının istehsalı, 10,7 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Cədvəl 4

**Sənaye istehsalı indeksləri,**
sabit qiymətlərlə, faizlə

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| **2023-cü il** | | |
| Yanvar | 100,6 | 95,7 |
| Fevral | 90,0 | 97,2 |
| Mart | 93,0 | 96,8 |
| Aprel | 93,5 | 97,6 |
| May | 113,0 | 98,1 |
| İyun | 93,0 | 98,4 |
| İyul | 104,6 | 98,4 |
| Avqust | 103,0 | 99,3 |
| Sentyabr | 86,0 | 98,9 |
| Oktyabr | 99,9 | 98,4 |
| Noyabr | 116,3 | 99,0 |
| Dekabr | 110,0 | 98,9 |
| **2024-cü il** | | |
| Yanvar | 101,1 | 98,5 |
| Fevral | 93,1 | 100,1 |
| Mart | 93,8 | 100,9 |

2024-cü ilin yanvar-mart aylarında 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə aralıq istehlak məhsullarının istehsalı 19,5 faiz, qısamüddətli istifadədə olan malların istehsalı 6,1 faiz artmış, enerji məhsullarının istehsalı 0,3 faiz, istehsal vasitələrinin istehsalı 4,0 faiz, uzunmüddətli istifadədə olan istehlak mallarının istehsalı isə 79,8 faiz azalmışdır.

Cədvəl 5

| | 2024-cü ilin mart ayı 2023-cü ilin mart ayına nisbətən, faizlə | 2024-cü ilin yanvar-mart ayları 2023-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Sənaye – cəmi** | **103,0** | **100,9** |
| Aralıq istehlak məhsullarının istehsalı | 124,6 | 119,5 |
| Uzunmüddətli istifadədə olan istehlak mallarının istehsalı | 21,7 | 20,2 |
| Qısamüddətli istifadədə olan malların istehsalı | 117,9 | 106,1 |
| İstehsal vasitələrinin istehsalı | 72,7 | 96,0 |
| Enerji məhsullarının istehsalı | 101,7 | 99,7 |

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 aprel 2024-cü il vəziyyətinə 961,4 milyon manatlıq hazır məhsul olmuşdur.

Ehtiyatların 54,3 faizi Bakı, 11,9 faizi Sumqayıt, 3,5 faizi Gəncə, 2,6 faizi Şirvan şəhərlərinin, 1,1 faizi Naxçıvan Muxtar Respublikasının, qalan hissəsi isə digər şəhər və rayonların sənaye müəssisələrinin anbarlarında qalmışdır. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 97,8 milyon manat məbləğində digər məhsullar da mövcud olmuşdur.

## Mədənçıxarma sənayesi

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 10,2 milyard manat olmaqla, əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,1 faiz azalmışdır.

Cədvəl 6

### Mədənçıxarma sənayesi üzrə istehsalın həcmi

| Fəaliyyət növlərinin adı | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| **Mədənçıxarma sənayesi** | 10151,7 | 99,9 |
| Xam neft və təbii qaz hasilatı | 9443,2 | 99,6 |
| Metal filizlərinin hasilatı | 45,5 | 80,9 |
| Mədənçıxarma sənayesinin digər sahələri | 48,8 | 106,3 |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi | 614,2 | 121,7 |

Sahənin əsas məhsulu olan əmtəəlik neft hasilatı 7,2 milyon ton, əmtəəlik təbii qaz hasilatı isə 9,7 milyard kub metr təşkil etmişdir. Əmtəəlik neft hasilatı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,0 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 5,4 faiz artmışdır.

Cədvəl 7

## Mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsullar

| Məhsul növləri | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.04.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Xam neft və təbii qaz hasilatı** | | | |
| Xam neft (qaz kondensatı daxil olmaqla), min ton | 7261,4 | 94,0 | 225,2 |
| ondan əmtəəlik | 7244,4 | 94,0 | 225,2 |
| Təbii qaz, milyon kub metr | 12573,0 | 103,4 | - |
| ondan əmtəəlik | 9682,0 | 105,4 | - |
| **Metal filizlərinin hasilatı** | | | |
| Mis konsentratı, ton | 54,3 | 6,4 | 76,7 |
| Gümüş, kq | 839,8 | 116,3 | 507,4 |
| Qızıl, kq | 427,6 | 103,8 | 196,8 |
| **Mədənçıxarma sənayesinin digər məhsulları** | | | |
| İnşaat üçün əhəng daşı, min ton | 173,7 | 2,8 d. | - |
| Gips və anhidrit, min ton | 73,6 | 86,4 | 18,8 |
| Tikinti qumu, min ton | 228,8 | 113,0 | 10,4 |
| Çınqıl, qırmadaş, xırda çay daşı və çaxmaq daşı, min ton | 824,6 | 169,9 | 69,3 |
| Bentonit, min ton | 33,4 | 92,3 | 106,8 |
| Duz, ton | 19342,6 | 109,8 | - |

Qrafik 2

## Neft və qaz hasilatının aylar üzrə dinamikası




## Emal sənayesi

Emal sənayesində 2024-cü ilin yanvar-mart aylarında 4561,2 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Cədvəl 8

### Emal sənayesində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| | **2023-cü il** | |
| Yanvar | 95,9 | 98,6 |
| Yanvar-fevral | 102,0 | 106,6 |
| Yanvar-mart | 103,0 | 104,4 |
| Yanvar-aprel | 110,4 | 106,2 |
| Yanvar-may | 114,4 | 108,3 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| Yanvar-iyun | 113,1 | 107,7 |
| Yanvar-iyul | 111,2 | 108,7 |
| Yanvar-avqust | 109,9 | 108,2 |
| Yanvar-sentyabr | 109,4 | 108,3 |
| Yanvar-oktyabr | 109,6 | 109,7 |
| Yanvar-noyabr | 109,8 | 110,6 |
| Yanvar-dekabr | 109,8 | 111,2 |
| **2024-cü il** | | |
| Yanvar | 107,3 | 117,7 |
| Yanvar-fevral | 113,7 | 118,1 |
| Yanvar-mart | 110,0 | 112,9 |

Qrafik 3

**Emal sənayesi üzrə istehsal indeksinin dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 9

## Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Emal sənayesi –cəmi** | **4561,2** | **110,0** |
| o cümlədən:<br>qida məhsullarının istehsalı | 1271,7 | 97,4 |
| içki istehsalı | 144,1 | 124,5 |
| tütün məmulatlarının istehsalı | 154,7 | 115,6 |
| toxuculuq sənayesi | 101,0 | 109,0 |
| geyim istehsalı | 18,8 | 121,1 |
| dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | 4,4 | 137,3 |
| mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 3,8 | 83,7 |
| kağız və karton istehsalı | 48,9 | 102,0 |
| poliqrafiya məhsullarının istehsalı | 24,5 | 96,0 |
| neft məhsullarının istehsalı | 1275,2 | 105,4 |
| kimya sənayesi | 416,3 | 116,7 |
| əczaçılıq məhsullarının istehsalı | 6,4 | 100,9 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 115,2 | 126,2 |
| tikinti materiallarının istehsalı | 274,6 | 134,4 |
| metallurgiya sənayesi | 235,7 | 149,7 |
| hazır metal məmulatlarının istehsalı | 68,3 | 99,9 |
| kompüter, elektron və optik məhsulların istehsalı | 8,5 | 107,9 |
| elektrik avadanlıqlarının istehsalı | 38,6 | 116,8 |
| maşın və avadanlıqların istehsalı | 102,9 | 80,5 |
| avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 46,2 | 99,6 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 4,4 | 54,9 |
| mebellərin istehsalı | 64,1 | 139,0 |
| zərgərlik məmulatları, musiqi alətləri, idman mallarının və tibb avadanlıqlarının istehsalı | 16,9 | 53,1 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 116,0 | 101,3 |

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə içki istehsalında 24,5 faiz, tütün məmulatlarının istehsalında 15,6 faiz artım, qida məhsullarının istehsalında isə 2,6 faiz azalma müşahidə olunmuşdur.

Bu sahələrin əsas məhsullarından tütün istehsalı 7,9 dəfə, viski (konyak) istehsalı 7,4 dəfə, pivə istehsalı 17,5 faiz artmış, şəkər, qənd istehsalı isə 36,5 faiz azalmışdır.

Cədvəl 10

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Qida məhsullarının istehsalı | İçki istehsalı | Tütün məmulatlarının istehsalı |
| **2023-cü il** | | | |
| Yanvar | 99,9 | 124,1 | 95,8 |
| Yanvar-fevral | 112,7 | 117,9 | 134,7 |
| Yanvar-mart | 113,6 | 125,1 | 106,6 |
| Yanvar-aprel | 112,2 | 118,1 | 109,8 |
| Yanvar-may | 113,3 | 127,4 | 108,4 |
| Yanvar-iyun | 111,9 | 126,5 | 107,0 |
| Yanvar-iyul | 111,7 | 126,0 | 110,0 |
| Yanvar-avqust | 111,2 | 126,7 | 106,0 |
| Yanvar-sentyabr | 110,8 | 125,7 | 104,6 |
| Yanvar-oktyabr | 110,7 | 127,2 | 103,8 |
| Yanvar-noyabr | 109,8 | 127,5 | 109,6 |
| Yanvar-dekabr | 109,2 | 123,0 | 112,8 |
| **2024-cü il** | | | |
| Yanvar | 108,7 | 106,3 | 128,3 |
| Yanvar-fevral | 103,9 | 128,9 | 99,4 |
| Yanvra-mart | 97,4 | 124,5 | 115,6 |

Qrafik 4

**Qida məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 11

## Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.04.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Qida məhsulları** | | | |
| Kolbasa məmulatları, ton | 7366,2 | 105,3 | 54,7 |
| Meyvə şirələri, min dkl | 1088,9 | 109,7 | 771,1 |
| Meyvə-tərəvəz konservləri, ton | 35986,1 | 90,6 | 16833,5 |
| Duru bitki yağları, ton | 10894,5 | 117,9 | 4883,5 |
| Marqarin, ton | 11077,2 | 95,9 | 2845,1 |
| Qaymaq, xama, ton | 2755,4 | 132,8 | - |
| Kərə yağı, ton | 6554,5 | 98,7 | 47,5 |
| Pendir və kəsmik, ton | 13710,4 | 103,4 | 22,6 |
| Unlu qənnadı məmulatlar, ton | 18103,2 | 99,8 | 341,7 |
| Makaron məmulatları, ton | 1643,6 | 114,0 | - |
| Şəkər, qənd, min ton | 45,5 | 63,5 | 12,2 |
| Şəkərli qənnadı məmulatları, ton | 2183,2 | 60,5 | 114,7 |

…ardı

| Məhsul növləri | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.04.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Çay, ton | 2931,4 | 114,5 | 84,7 |
| Qida duzu, min ton | 19,0 | 109,8 | 2,7 |
| **İçki məhsulları** | | | |
| Alkoqolsuz içkilər, min dkl | 8385,7 | 111,5 | 457,5 |
| Şirinləşdirilməmiş sular, min dkl | 6612,6 | 176,7 | 1479,6 |
| Viski (konyak), min dkl | 136,3 | 7,4 d. | 88,8 |
| Üzüm şərabı, min dkl | 216,8 | 90,3 | 808,1 |
| Araq, min dkl | 292,3 | 88,8 | 166,6 |
| Pivə, min dkl | 942,0 | 117,5 | 183,0 |
| **Tütün məmulatları** | | | |
| Siqaret və siqarlar, milyon ədəd | 3871,6 | 105,4 | 788,9 |
| Tütün, ton | 1377,9 | 7,9 d. | 481,6 |

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı** sahələrində 124,2 milyon manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında 37,3 faiz, geyim istehsalında 21,1 faiz, toxuculuq sənayesində 9,0 faiz artım müşahidə olunmuşdur.

Cədvəl 12

## Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| **2023-cü il** | | | |
| Yanvar | 117,5 | 125,4 | 2,9 d. |
| Yanvar-fevral | 125,6 | 117,3 | 3,7 d. |
| Yanvar-mart | 128,0 | 98,9 | 108,2 |
| Yanvar-aprel | 140,5 | 76,8 | 103,5 |
| Yanvar-may | 149,9 | 71,6 | 99,6 |
| Yanvar-iyun | 148,7 | 67,1 | 83,5 |
| Yanvar-iyul | 143,0 | 76,6 | 80,9 |
| Yanvar-avqust | 123,5 | 86,4 | 93,3 |
| Yanvar-sentyabr | 119,4 | 83,4 | 93,4 |
| Yanvar-oktyabr | 111,4 | 87,7 | 91,2 |
| Yanvar-noyabr | 112,7 | 86,7 | 88,6 |
| Yanvar-dekabr | 108,8 | 84,8 | 98,0 |
| **2024-cü il** | | | |
| Yanvar | 118,0 | 127,5 | 2,1 d. |
| Yanvar-fevral | 106,7 | 137,1 | 2,2 d. |
| Yanvar-mart | 109,0 | 121,1 | 137,3 |

Cədvəl 13

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.04.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Toxuculuq məhsulları** | | | |
| Pambıq mahlıcı, ton | 25657,4 | 75,2 | 41491,7 |
| Pambıq ipliyi, ton | 4226,0 | 124,6 | 3994,7 |
| Pambıq parçalar, min kv.m | 7155,0 | 168,6 | 525,2 |
| Pambıq yataq ağları, min ədəd | 16,2 | 2,5 d. | 6,9 |
| Xalça və xalça məmulatları, min kv.m | 0,8 | 88,9 | 5,5 |
| **Geyim istehsalı** | | | |
| Üst geyim, min ədəd | 136,3 | 130,1 | 9,1 |
| İstehsalat və peşə komplektləri, min ədəd | 579,8 | 177,6 | 63,6 |
| Alt geyim, min ədəd | 83,4 | 96,4 | 36,8 |
| Sair geyim, min ədəd | 1641,9 | 111,2 | 1608,5 |
| Corab məmulatları, min cüt | 807,9 | 110,2 | 40,5 |
| **Dəri və dəridən məmulatlar, ayaqqabılar** | | | |
| Emal edilmiş dəri, min kv.m | 0,8 | - | 140,0 |
| Ayaqqabı, min cüt | 96,9 | 138,0 | 5,1 |

**Neft məhsullarının istehsalı** sahəsində istehsalın ümumi dəyəri 1275,2 milyon manat olmaqla, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,4 faiz artmışdır. Neft məhsullarının istehsalında neft bitumu istehsalı 29,8 faiz, ağ neft 16,9 faiz, avtomobil benzini 9,9 faiz artmış, sürtkü yağlarının istehsalı isə 5,8 faiz azalmışdır.

Cədvəl 14

**Neft məhsullarının istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.04.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Avtomobil benzini, min ton | 384,1 | 109,9 | 64,9 |
| Ağ neft, min ton | 159,6 | 116,9 | 51,5 |
| Qazoyllar (dizel yanacağı), min ton | 599,8 | 107,8 | 163,3 |
| Mazut, min ton | - | - | 1,3 |
| Sürtkü yağları, min ton | 14,5 | 94,2 | 4,3 |
| Maye qazlar, min ton | 59,6 | 84,2 | 2,2 |
| Neft koksu; neft bitumu və neft məhsullarının digər qrupları, min ton | 225,1 | 81,5 | 59,7 |
| ondan: | | | |
| neft bitumu, min ton | 51,4 | 129,8 | 13,8 |
| neft koksu, min ton | 61,1 | 95,3 | 41,6 |

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı** sahələrində 537,9 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə rezin və plastik kütlə məmulatlarının istehsalı 26,2 faiz, kimya sənayesi məhsullarının istehsalı 16,7 faiz, əczaçılıq məhsullarının istehsalı isə 0,9 faiz artmışdır.

Kimya sənayesi məhsullarından metanol 91,5 faiz, karbamid 68,2 faiz, yapışqan və yapışdırıcı maddələr 20,7 faiz, rezin və plastik kütlə məmulatlarından polietilendən başqa, digər plastmas kisələr və çantalar istehsalı 3,4 dəfə, polietilendən kisə və çantalar istehsalı 63,6 faiz, məsaməli plastik kütlədən sair plastinlər, lövhələr istehsalı 61,8 faiz, sərt plastmasdan borular, borucuqlar, qolçaqlar və şlanqların istehsalı 7,7 faiz artmışdır.

Cədvəl 15

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Kimya sənayesi | Əczaçılıq məhsullarının istehsalı | Rezin və plastik kütlə məmulatlarının istehsalı |
| **2023-cü il** | | | |
| Yanvar | 81,9 | 54,5 | 97,4 |
| Yanvar-fevral | 82,8 | 159,4 | 123,9 |
| Yanvar-mart | 88,8 | 168,8 | 116,9 |
| Yanvar-aprel | 100,9 | 95,6 | 112,2 |
| Yanvar-may | 108,9 | 83,6 | 116,5 |
| Yanvar-iyun | 103,1 | 72,7 | 116,0 |
| Yanvar-iyul | 103,6 | 86,1 | 119,5 |
| Yanvar-avqust | 106,0 | 102,8 | 120,9 |
| Yanvar-sentyabr | 108,0 | 102,9 | 117,6 |
| Yanvar-oktyabr | 108,1 | 104,6 | 119,8 |
| Yanvar-noyabr | 108,3 | 101,1 | 120,4 |
| Yanvar-dekabr | 106,9 | 90,9 | 118,5 |
| **2024-cü il** | | | |
| Yanvar | 98,6 | 2,8 d. | 141,0 |
| Yanvar-fevral | 114,7 | 151,0 | 128,4 |
| Yanvar-mart | 116,7 | 100,9 | 126,2 |

Qrafik 5

**Kimya sənayesi məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 16

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.04.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kimya sənayesi məhsulları** | | | |
| Təsirsiz qazlar, min kub metr | 10815,2 | 85,7 | 118,5 |
| ondan: | | | |
| azot, min kub metr | 5903,8 | 103,1 | 115,0 |
| Lak-boya məmulatları, ton | 5239,4 | 92,8 | 490,6 |
| Qeyri-üzvi kimyəvi maddələr, min ton | 8760,0 | 116,0 | 6770,0 |
| ondan: | | | |
| yod, ton | 48,7 | 99,0 | 10.9 |
| Üzvi kimyəvi maddələr, min ton | 266,9 | 124,7 | 41,1 |
| ondan: | | | |
| etilen, min ton | 42,9 | 90,7 | 0,3 |

…ardı

| Məhsul növləri | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.04.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| propen (propilen), min ton | 40,5 | 93,3 | 0,4 |
| metanol (metil spirti), min ton | 144,2 | 191,5 | 31,8 |
| Etil spirti, min dkl | - | - | 20,7 |
| Gübrə və azot birləşmələri, min ton | 167,1 | 168,3 | 44,7 |
| ondan: | | | |
| karbamid, min ton | 167,0 | 168,2 | 44,7 |
| İlkin formada plastik kütlə, min ton | 82,1 | 92,2 | 34,1 |
| ondan: | | | |
| polietilen, min ton | 41,1 | 86,7 | 22,6 |
| Yapışqan və yapışdırıcı maddələr, min ton | 25,1 | 120,7 | 7,5 |
| **Əczaçılıq məhsullarının istehsalı** | | | |
| Dərmanlar, min manat | 3290,1 | 100,1 | 1334,3 |
| Tibbi maskalar, milyon ədəd | 0,9 | 4,5 d. | 6,0 |
| **Rezin və plastik kütlə məmulatlarının istehsalı** | | | |
| Plastmas çubuqlar, millər və profillər, ton | 1508,6 | 86,2 | 3,0 |
| Sərt plastmasdan borular, borucuqlar, qolçaqlar və şlanqlar, ton | 9053,6 | 107,7 | 2373,4 |
| Polietilendən kisə və çantalar, ton | 6228,1 | 163,6 | 397,4 |
| Plastmas butulkalar, flakonlar və oxşar məmulatlar, min ədəd | 27469,1 | 176,9 | 17711,6 |
| Polietilendən başqa, digər plastmas kisələr və çantalar, ton | 1195,9 | 3,4 d. | 227,0 |
| Döşəmə, divar və tavan üçün plastik kütlədən rulon və ya plitka şəklində örtük, min kv. metr | 73,8 | 133,2 | - |
| Digər plastmasdan tikinti məmulatları, ton | 361,6 | 65,7 | 910,1 |
| Məsaməli plastik kütlədən sair plastinlər, lövhələr, ton | 597,7 | 161,8 | 32,3 |

**Tikinti materiallarının istehsalı** sahəsində 2024-cü ilin yanvar-mart aylarında istehsalın ümumi dəyəri 274,6 milyon manat olmaqla, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 34,4 faiz artmışdır. Dövr ərzində betondan yığma tikinti konstruksiyalarının istehsalı 49,2 faiz, beton istehsalı 34,6 faiz, tikinti gipsinin istehsalı 27,1 faiz, sement istehsalı isə 26,3 faiz artmışdır.

Qrafik 6

**Tikinti materiallarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 17

**Tikinti materiallarının istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.04.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Tikinti şüşəsi, min kv. metr | 2597,1 | 121,1 | 1795,5 |
| Tikinti kərpicləri, min kub metr | 127,8 | 96,9 | 1,7 |
| Sement klinkerləri, min ton | 842,3 | 128,2 | 369,1 |
| Sement, min ton | 890,7 | 126,3 | 88,0 |
| Əhəng, min ton | 6,2 | 41,9 | 5,4 |
| Gips məmulatlar, min ton | 29,5 | 113,5 | 12,2 |
| ondan: | | | |
| tikinti gipsi, min ton | 19,7 | 127,1 | 1,9 |

…ardı

| Məhsul növləri | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.04.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Sementdən, betondan kərpiclər və oxşar məmulatlar, min ton | 31,0 | 2,9 d. | 21,9 |
| Betondan yığma tikinti konstruksiyaları, min kub metr | 8,8 | 149,2 | 2,1 |
| Beton, min ton | 1116,5 | 134,6 | - |
| Asfalt, min ton | 15,0 | 97,4 | 0,2 |

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı** sahələrində 2024-cü ilin yanvar-mart aylarında 304,0 milyon manatlıq məhsul istehsal olunmuş, metallurgiya sənayesi məhsullarının istehsalında 49,7 faiz artım, hazır metal məmulatlarının istehsalı sahəsində isə 0,1 faiz azalma müşahidə olunmuşdur. 2024-cü ilin yanvar-mart aylarında metallurgiya sənayesi üzrə alüminium məmulatlarının istehsalı 90,4 faiz, armatur istehsalı 54,0 faiz artmış, hazır metal məmulatlarının istehsalı sahəsi üzrə metaldan konstruksiyaların istehsalı isə 17,9 faiz azalmışdır.

Cədvəl 18

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində indekslərin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| **2023-cü il** | | |
| Yanvar | 62,3 | 75,5 |
| Yanvar-fevral | 64,6 | 95,8 |
| Yanvar-mart | 55,8 | 98,7 |
| Yanvar-aprel | 58,6 | 93,8 |
| Yanvar-may | 62,1 | 109,7 |
| Yanvar-iyun | 66,3 | 121,5 |
| Yanvar-iyul | 68,9 | 119,1 |
| Yanvar-avqust | 69,3 | 117,0 |
| Yanvar-sentyabr | 71,1 | 113,7 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| Yanvar-oktyabr | 74,6 | 123,0 |
| Yanvar-noyabr | 77,8 | 119,2 |
| Yanvar-dekabr | 81,1 | 130,1 |
| **2024-cü il** | | |
| Yanvar | 148,7 | 118,3 |
| Yanvar-fevral | 175,9 | 97,6 |
| Yanvar-mart | 149,7 | 99,9 |

Cədvəl 19

## Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.04.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Metallurgiya sənayesi məhsulları** | | | |
| Polad tökmə, min ton | 84,4 | 156,9 | 7,9 |
| Armatur, min ton | 84,4 | 154,0 | 16,6 |
| Polad borular, min ton | 22,7 | 36,2 | 1,2 |
| Emal edilməmiş qurğuşun, alüminium, sink, nikel və s., min ton | 7,8 | 73,6 | 6,4 |
| Alüminium məmulatları, ton | 14716,2 | 190,4 | 3394,2 |
| Mis məftil, ton | 27,9 | 205,1 | - |
| **Hazır metal məmulatlarının istehsalı** | | | |
| Metaldan konstruksiyalar, ton | 4517,1 | 82,1 | 11642,3 |
| İzolyasiyası olmayan çoxnaqilli məftil, troslar və oxşar məmulatlar, ton | 1799,4 | 72,3 | - |
| Metaldan sair məmulatlar, ton | 6607,0 | 90,1 | 60,7 |

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı** sahələrində 2024-cü ilin yanvar-mart aylarında 47,1 milyon manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə elektrik avadanlıqlarının

istehsalı 16,8 faiz, kompüter, elektron və optik məhsulların istehsalı isə 7,9 faiz artmışdır. Dövr ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə noutbukların istehsalı 3,0 dəfə, güc transformatorlarının istehsalı 2,2 dəfə artmışdır.

Cədvəl 20

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Kompüter, elektron və optik məhsulların istehsalı | Elektrik avadanlıqlarının istehsalı |
| **2023-cü il** | | |
| Yanvar | 144,6 | 130,9 |
| Yanvar-fevral | 104,9 | 125,8 |
| Yanvar-mart | 135,7 | 108,7 |
| Yanvar-aprel | 2,6 d. | 101,5 |
| Yanvar-may | 2,1 d. | 102,4 |
| Yanvar-iyun | 188,9 | 106,4 |
| Yanvar-iyul | 2,0 d. | 99,8 |
| Yanvar-avqust | 180,4 | 99,3 |
| Yanvar-sentyabr | 160,2 | 103,1 |
| Yanvar-oktyabr | 165,0 | 107,8 |
| Yanvar-noyabr | 174,3 | 110,3 |
| Yanvar-dekabr | 88,1 | 116,2 |
| **2024-cü il** | | |
| Yanvar | 167,9 | 124,9 |
| Yanvar-fevral | 116,2 | 118,3 |
| Yanvar-mart | 107,9 | 116,8 |

Cədvəl 21

## Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.04.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kompüter, elektron və optik məhsulların istehsalı** | | | |
| Noutbuklar, ədəd | 801 | 3,0 d. | - |
| Stolüstü kompüterlər, ədəd | 458 | 71,5 | - |
| Ölçmə cihazları, min ədəd | 67,4 | 79,8 | 16,2 |
| **Elektrik avadanlıqlarının istehsalı** | | | |
| Güc transformatorları, ədəd | 259 | 2,2 d. | - |
| Elektrik tənzimləyici cihazlar, ədəd | 694 | 26,9 | - |
| Digər elektrik naqilləri, ton | 2251,5 | 105,5 | 1260,6 |
| Məişət soyuducuları və dondurucuları, ədəd | 102 | 32,2 | 62 |

**Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı** sahələrində 2024-cü ilin yanvar-mart aylarında 153,5 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 0,4 faiz, maşın və avadanlıqların istehsalı 19,5 faiz, sair nəqliyyat vasitələrinin istehsalı isə 45,1 faiz azalmışdır. 2024-cü ilin yanvar-mart aylarında 607 ədəd və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 318 ədəd az minik avtomobili istehsal olunmuşdur. Dövr ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə traktorların istehsalı 27,2 faiz azalmışdır.

Cədvəl 22

## Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Maşın və avadanlıqların istehsalı | Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | Sair nəqliyyat vasitələrinin istehsalı |
| **2023-cü il** | | | |
| Yanvar | 180,3 | 107,9 | 76,5 |
| Yanvar-fevral | 110,4 | 2,1 d. | 77,0 |
| Yanvar-mart | 125,4 | 2,1 d. | 99,6 |
| Yanvar-aprel | 123,5 | 169,2 | 72,7 |
| Yanvar-may | 109,0 | 132,9 | 69,4 |
| Yanvar-iyun | 110,9 | 134,9 | 81,2 |
| Yanvar-iyul | 120,0 | 138,7 | 83,0 |
| Yanvar-avqust | 114,9 | 152,1 | 82,3 |
| Yanvar-sentyabr | 121,1 | 131,2 | 78,9 |
| Yanvar-oktyabr | 130,2 | 133,9 | 83,8 |
| Yanvar-noyabr | 137,4 | 152,1 | 90,1 |
| Yanvar-dekabr | 177,7 | 148,1 | 95,9 |
| **2024-cü il** | | | |
| Yanvar | 100,0 | 154,1 | 33,5 |
| Yanvar-fevral | 84,8 | 130,7 | 49,6 |
| Yanvar-mart | 80,5 | 99,6 | 54,9 |

Cədvəl 23

## Maşın və avadanlıqların, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.04.2024-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Maşın və avadanlıqların istehsalı** | | | |
| Nasoslar, ədəd | 1671 | 83,8 | 399 |
| ondan: | | | |
| ştanqlı quyu nasosları, ədəd | 1646 | 85,9 | 336 |
| Kran, qapaq və klapanlar, ton | 53,7 | 48,1 | 81,5 |
| ondan: | | | |
| fontan armaturu, ton | 3,6 | 9,4 | - |
| Traktorlar, ədəd | 166 | 72,8 | 10 |
| **Avtomobil, qoşqu və yarımqoşquların istehsalı** | | | |
| Minik avtomobilləri, ədəd | 607 | 65,6 | 226 |
| Yük avtomobilləri, ədəd | 200 | 137,9 | 67 |

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorları

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2024-cü ilin yanvar-mart aylarında 888,3 milyon manat dəyərində məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 130,6 milyon manat təşkil etmişdir.

Cədvəl 24

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 888,3 | 94,8 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 130,6 | 106,6 |

Cədvəl 25

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2024-cü ilin yanvar-mart aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | | |
| Elektrik enerjisi, mln. kVt.s | 6681,9* | 91,6 |
| ondan əmtəəlik | 6458,7 | 91,2 |
| istilik elektrik stansiyalarının istehsalı | 5953,3 | 87,8 |
| su elektrik stansiyalarının istehsalı | 428,9 | 158,4 |
| külək elektrik stansiyalarının istehsalı | 14,1 | 92,2 |
| günəş elektrik stansiyalarının istehsalı | 62,4 | 4,7 d. |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | | |
| Suyun təmizlənməsi və bölüşdürülməsi, mln. kub metr | 124,8 | 106,0 |

*) əsas fəaliyyəti elektrik enerjisinin istehsalı olmayan müəssisələr nəzərə alınmadan

# Tikinti

## Əsas kapitala yönəldilmiş investisiyalar

2024-cü ilin yanvar-mart aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 3809,2 milyon manat və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,0 faiz çox investisiya yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 2,7 faiz, qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 4,8 faiz artmışdır. Ümumi sərmayənin 2122,6 milyon manatı və ya 55,7 faizi məhsul istehsalı sahələrinin, 1453,1 milyon manatı (38,2 faizi) xidmət sahələrinin, 233,5 milyon manatı (6,1 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşmüşdür.

Ümumi sərmayənin 54,6 faizi dövlət, 45,4 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Sərmayə qoyuluşunun 70,4 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş investisiyanın dəyəri ümumi sərmayənin 79,4 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş investisiyalarda müəssisə və təşkilatların öz vəsaitləri 1924,1 milyon manat, büdcə vəsaitləri 1475,6 milyon manat, digər maliyyə mənbələri isə 409,5 milyon manat təşkil etmişdir.

Cədvəl 26

**Maliyyə mənbələri üzrə**
**əsas kapitala yönəldilmiş vəsaitlər**

| | 2024-cü ilin yanvar-mart aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **3809,2** | **104,0** | **100,0** |
| o cümlədən: Müəssisə və təşkilatların öz vəsaitləri | 1924,1 | 115,1 | 50,5 |
| Büdcə vəsaitləri | 1475,6 | 103,8 | 38,7 |
| Digər maliyyə mənbələri | 409,5 | X | 10,8 |

Qrafik 7

**Əsas kapitala yönəldilmiş vəsaitlərin maliyyə mənbələri üzrə strukturu,** faizlə




2024-cü ilin yanvar-mart aylarında əsas kapitala yönəldilmiş ümumi investisiyanın 39,3 faizi sənaye, 31,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 20,7 faizi tikinti, 1,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,7 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 1,5 faizi informasiya və rabitə,

hər birində 0,8 faiz olmaqla ticarət; nəqliyyat vasitələrinin təmiri, maliyyə və sığorta fəaliyyəti, 0,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 0,3 faizi təhsil, hər birində 0,2 faiz olmaqla dövlət idarəetməsi və müdafiə, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, digər sahələrdə xidmətlərin göstərilməsi, 0,1 faizi peşə, elmi və texniki fəaliyyət sahələrinə sərf edilmişdir.

Cədvəl 27

**İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların dəyəri**

| İqtisadiyyatın sahələri | 2024-cü ilin yanvar-mart aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **3809,2** | **104,0** | **100,0** |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **70,4** | **77,6** | **1,8** |
| **Sənaye** | **1497,2** | **99,9** | **39,3** |
| o cümlədən: Mədənçıxarma sənayesi | 1177,4 | 97,0 | 30,9 |
| Emal sənayesi | 225,9 | 129,3 | 5,9 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 67,1 | 84,5 | 1,8 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 26,8 | 88,1 | 0,7 |
| **Tikinti** | **788,4** | **128,0** | **20,7** |
| ondan mənzil tikintisi | 233,5 | 121,7 | 6,1 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **29,5** | **89,5** | **0,8** |
| **Nəqliyyat və anbar təsərrüfatı** | **1210,3** | **97,3** | **31,8** |
| o cümlədən: nəqliyyat | 1210,1 | 97,3 | 31,8 |
| poçt və kuryer fəaliyyəti | 0,2 | 36,6 | 0,0 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **21,6** | **104,1** | **0,6** |

...ardı

| Mil-Muğan iqtisadi rayonu | 6 | 0,8 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 8 | 1,0 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 2 | 0,2 |
| Şirvan-Salyan iqtisadi rayonu | 17 | 2,2 |

İri sahibkarlıq subyektlərinin 78,8 faizi Bakıda, 7,8 faizi Abşeron-Xızı, 2,3 faizi Gəncə-Daşkəsən, 2,2 faizi Şirvan-Salyan, qalanları isə digər iqtisadi rayonlarda yaradılmışdır.

## Fərdi sahibkarlar

2024-cü il aprelin 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyon 341 mini keçmişdir.

Cədvəl 81

### Fərdi sahibkarların sayının iqtisadi fəaliyyət növləri üzrə bölgüsü

| Fəaliyyət növləri | 01.04.2024-cü il vəziyyətinə fərdi sahibkarların sayı | Ümumi saya görə, faizlə |
|---|---|---|
| **CƏMİ** | **1341825** | **100,0** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 497812 | 37,1 |
| Mədənçıxarma sənayesi | 1261 | 0,1 |
| Emal sənayesi | 27554 | 2,0 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 94 | 0,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 1157 | 0,1 |
| Tikinti | 27936 | 2,1 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 257762 | 19,2 |
| Nəqliyyat və anbar təsərrüfatı | 147107 | 11,0 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 49564 | 3,7 |
| İnformasiya və rabitə | 14099 | 1,0 |
| Maliyyə və sığorta fəaliyyəti | 3678 | 0,3 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 16884 | 1,3 |
| Peşə, elmi və texniki fəaliyyət | 30909 | 2,3 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 26758 | 2,0 |
| Təhsil | 16460 | 1,2 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 8105 | 0,6 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 16674 | 1,2 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 123518 | 9,2 |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | 74493 | 5,6 |

Hesabat dövründə hər dörd fərdi sahibkardan üçü “Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq”, “Ticarət; nəqliyyat vasitələrinin təmiri”, “Nəqliyyat və anbar təsərrüfatı” və “Digər sahələrdə xidmətlərin göstərilməsi” sahələri üzrə qeydiyyatdan keçmişdir.

Cədvəl 82

**Fərdi sahibkarların sayının iqtisadi rayonlar üzrə bölgüsü**

| İqtisadi rayonlar | 01.04.2024-cü il vəziyyətinə fərdi sahibkarların sayı | Ümumi saya görə, faizlə |
|---|---|---|
| **CƏMİ** | **1341825** | **100,0** |
| Bakı şəhəri | 356500 | 26,6 |
| Naxçıvan Muxtar Respublikası | 42925 | 3,2 |
| Abşeron-Xızı iqtisadi rayonu | 70017 | 5,2 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 39742 | 3,0 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 84541 | 6,3 |
| Qarabağ iqtisadi rayonu | 85723 | 6,4 |
| Qazax-Tovuz iqtisadi rayonu | 105840 | 7,9 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 83285 | 6,2 |
| Lənkəran-Astara iqtisadi rayonu | 137397 | 10,2 |
| Mərkəzi Aran iqtisadi rayonu | 95539 | 7,1 |
| Mil-Muğan iqtisadi rayonu | 70041 | 5,2 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 91353 | 6,8 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 5081 | 0,4 |
| Şirvan-Salyan iqtisadi rayonu | 73841 | 5,5 |

Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (26,6%), Lənkəran-Astara (10,2%), Qazax-Tovuz (7,9%) və Mərkəzi Aran (7,1%) iqtisadi rayonlarında qeydiyyata alınmışdır.

Cədvəl 83

**İqtisadi fəaliyyət növləri üzrə fərdi sahibkarların cins üzrə bölgüsü**

| Fəaliyyət növləri | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|
| | sayı | % | sayı | % |
| **CƏMİ** | **1035292** | **100,0** | **306533** | **100,0** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 371317 | 35,9 | 126495 | 41,3 |
| Mədənçıxarma sənayesi | 1188 | 0,1 | 73 | 0,0 |
| Emal sənayesi | 21951 | 2,1 | 5603 | 1,8 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 87 | 0,0 | 7 | 0,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 1069 | 0,1 | 88 | 0,0 |
| Tikinti | 27031 | 2,6 | 905 | 0,3 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 202298 | 19,5 | 55464 | 18,1 |
| Nəqliyyat və anbar təsərrüfatı | 142642 | 13,8 | 4465 | 1,5 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 41509 | 4,0 | 8055 | 2,6 |
| İnformasiya və rabitə | 11126 | 1,1 | 2973 | 1,0 |
| Maliyyə və sığorta fəaliyyəti | 2746 | 0,3 | 932 | 0,3 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 11902 | 1,1 | 4982 | 1,6 |
| Peşə, elmi və texniki fəaliyyət | 20653 | 2,0 | 10256 | 3,3 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 17003 | 1,6 | 9755 | 3,2 |
| Təhsil | 5825 | 0,6 | 10635 | 3,5 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 5025 | 0,5 | 3080 | 1,0 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 14264 | 1,4 | 2410 | 0,8 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 79893 | 7,7 | 43625 | 14,2 |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | 57763 | 5,6 | 16730 | 5,5 |

Fərdi sahibkarların 77,2 faizini kişilər, 22,8 faizini isə qadınlar təşkil etmişdir.

Qadınlar "Digər sahələrdə xidmətlərin göstərilməsi" fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 35,3 faizini, "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" fəaliyyət sahəsində 25,4 faizini, "Ticarət; nəqliyyat vasitələrinin təmiri" fəaliyyət sahəsində isə 21,5 faizini təşkil edir.

Cədvəl 84

**İqtisadi rayonlar üzrə fərdi sahibkarların cins üzrə bölgüsü**

| İqtisadi rayonlar | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|
| | sayı | % | sayı | % |
| **CƏMİ** | **1035292** | **100,0** | **306533** | **100,0** |
| Bakı şəhəri | 268611 | 25,9 | 87889 | 28,7 |
| Naxçıvan Muxtar Respublikası | 31652 | 3,1 | 11273 | 3,7 |
| Abşeron-Xızı iqtisadi rayonu | 54772 | 5,3 | 15245 | 5,0 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 32890 | 3,2 | 6852 | 2,2 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 62749 | 6,1 | 21792 | 7,1 |
| Qarabağ iqtisadi rayonu | 69753 | 6,7 | 15970 | 5,2 |
| Qazax-Tovuz iqtisadi rayonu | 76395 | 7,4 | 29445 | 9,6 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 65388 | 6,3 | 17897 | 5,8 |
| Lənkəran-Astara iqtisadi rayonu | 106061 | 10,2 | 31336 | 10,2 |
| Mərkəzi Aran iqtisadi rayonu | 74434 | 7,2 | 21105 | 6,9 |
| Mil-Muğan iqtisadi rayonu | 59002 | 5,7 | 11039 | 3,6 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 70778 | 6,8 | 20575 | 6,7 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 4031 | 0,4 | 1050 | 0,4 |
| Şirvan-Salyan iqtisadi rayonu | 58776 | 5,7 | 15065 | 4,9 |

Sahibkar qadınların 28,7 faizi Bakıda, 10,2 faizi Lənkəran-Astara, 9,6 faizi Qazax-Tovuz, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçmişdir.

Fərdi sahibkarların cins tərkibinin regionlar üzrə say bölgüsündən aydın olur ki, Qazax-Tovuz (27,8%), Naxçıvan Muxtar Respublikası (26,3%), Gəncə-Daşkəsən (25,8%), Bakı (24,7%) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.

# Əhalinin gəlirləri

İlkin məlumatlara görə, 2024-cü ilin yanvar-mart aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,0 faiz artaraq 19408,1 milyon manat və ya hər nəfərə orta hesabla 1905,4 manat olmuşdur.

Əhalinin sərəncamında qalan gəlirləri 17087,0 milyon manat təşkil etmişdir.

Cədvəl 85

**Əhalinin gəlirlərinin əsas göstəriciləri**

| | 2024-cü il yanvar-mart aylarında | 2023-cü il yanvar-mart aylarında*) | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| Əhalinin nominal gəlirləri, milyon manat | 19408,1 | 18482,9 | 105,0 |
| hər nəfərə, manat | 1905,4 | 1824,0 | 104,5 |
| Sərəncamda qalan gəlirlər, milyon manat | 17087,0 | 16311,4 | 104,8 |
| hər nəfərə, manat | 1677,5 | 1609,7 | 104,2 |

*) 2023-cü ilin aylıq göstəriciləri dövr üzrə yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

# Əməkhaqqı

2024-cü ilin yanvar-fevral aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 10,8 faiz artaraq 946,8 manat təşkil etmişdir. Əməkhaqqı neft-qaz sektorunda 3438,3 manat, qeyri neft-qaz sektorunda 899,7 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 901,8 manat, özəl müəssisələrdə isə 996,5 manat olmuşdur.

Cədvəl 86

**2024-cü ilin yanvar-fevral aylarında iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı**
(manat)

| İqtisadi fəaliyyət növləri | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | dövlət | qeyri-dövlət |
| **Ölkə üzrə – cəmi** | **946,8** | **901,8** | **996,5** |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 528,0 | 496,1 | 552,7 |
| Mədənçıxarma sənayesi | 3 298,6 | 2 097,2 | 3 948,2 |
| Emal sənayesi | 866,9 | 1 207,1 | 815,2 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 1 035,7 | 1 030,7 | 1 349,3 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 706,9 | 657,9 | 1 155,8 |
| Tikinti | 1 044,7 | 958,3 | 1 069,9 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 658,8 | 887,2 | 657,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 1 341,1 | 1 359,5 | 1 315,9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 732,0 | 1 484,0 | 701,7 |
| İnformasiya və rabitə | 1 639,5 | 1 373,1 | 1 845,8 |
| Maliyyə və sığorta fəaliyyəti | 2 325,9 | 2 665,5 | 2 241,3 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 936,9 | 988,5 | 917,5 |
| Peşə, elmi və texniki fəaliyyət | 1 538,4 | 972,8 | 2 079,8 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 600,0 | 549,1 | 732,0 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 1 254,0 | 1 293,1 | 458,6 |
| Təhsil | 742,2 | 734,4 | 903,5 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 820,4 | 842,4 | 716,4 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 708,8 | 668,2 | 1 080,8 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 1 074,4 | 1 388,7 | 983,1 |

Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksək olmuşdur.

## Əhalinin əmanətləri və manatın məzənnəsi

Mərkəzi Bankın məlumatına görə əhalinin banklardakı əmanətlərinin məbləği il ərzində 11,5 faiz artaraq 2024-cü il mart ayının 1-nə milli valyuta ekvivalentində 13267,2 milyon manat təşkil etmişdir. Əmanətlərin 64,7 faizi milli, 35,3 faizi xarici valyutada qoyulmuş, xarici valyutada qoyulmuş əmanətlərin məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,8 faiz, milli valyutada olan əmanətlərin məbləği isə 17,6 faiz artmışdır.

Cədvəl 87

**Əhalinin əmanətləri**

| | 2024-cü il martın 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| Əhalinin əmanətləri – cəmi | 13267,2 | 111,5 |
| o cümlədən: milli valyutada | 8579,5 | 117,6 |
| xarici valyutada | 4687,7 | 101,8 |

Qrafik 33




Mart ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 (ilin əvvəlindən 1,70) manata, 1 Avroya 1,85 (1,85) manata, 100 Türk lirəsinə 5,30 (5,50) manata, 100 Rus rubluna 1,85 (1,87) manata bərabər olmuşdur.

# Demoqrafik vəziyyət

Ölkə əhalisinin sayı ilin əvvəlindən 6769 nəfər və ya 0,1 faiz artaraq 2024-cü il mart ayının 1-i vəziyyətinə 10187539 nəfər təşkil etmişdir. Əhalinin ümumi sayının 54,5 faizini şəhər, 45,5 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

Cədvəl 88

**Əhalinin təbii hərəkətinin əsas göstəriciləri**

| | Yanvar-fevral ayları üzrə | | | | | |
|---|---|---|---|---|---|---|
| | Nəfər | | | Əhalinin hər 1000 nəfərinə[1)] | | |
| | 2024 | 2023 | artım (+) azalma (-) | 2024 | 2023 | 2024-cü il 2023-cü ilə nisbətən, faizlə |
| Təbii artım | 6686 | 7967 | -1281 | 4,0 | 4,9 | 81,6 |
| doğulanlar | 17081 | 19158 | -2077 | 10,2 | 11,7 | 87,2 |
| ölənlər | 10395 | 11191 | -796 | 6,2 | 6,8 | 91,2 |
| Nikahlar | 6739 | 7541 | -802 | 4,0 | 4,6 | 87,0 |
| Boşanmalar | 3456 | 3014 | +442 | 2,1 | 1,8 | 116,7 |

[1)] Əmsallar il üçün hesablanmışdır

Cari ilin yanvar-fevral aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 17081 doğulan körpə qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 11,7-dən 10,2-yə düşmüşdür. Doğulan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 52,5 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 47,5 faiz olmuşdur. Körpələrdən 594-ü əkiz, 36-sı üçəm doğulmuşdur.

Bu ilin ilk iki ayında ölkədə 10395 ölüm halı qeydə alınmış və 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 6,8-dən 6,2-yə düşmüşdür.

Qrafik 34




Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2024-cü ilin yanvar-fevral aylarında 6739 nikah və 3456 boşanma halları qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,6-dan 4,0-a düşmüş, boşanmaların sayı isə 1,8-dən 2,1-ə qədər artmışdır.

**Azərbaycan Respublikası**
**Dövlət Statistika Komitəsinin**
**sədri** **Tahir Budaqov**

Cədvəl 89

## 2024-cü ilin yanvar-fevral aylarında MDB ölkələri üzrə əsas sosial-iqtisadi göstəricilər

(ötən ilin müvafiq dövrünə nisbətən faizlə; dəyər ifadəsində göstəricilər sabit qiymətlərlə; milli statistika xidmətlərinin məlumatlarına əsasən)

| | **Azərbaycan** | **Ermənistan** | **Belarus** | **Qazaxıs-tan** | **Qırğızıs-tan** | **Moldova** | **Rusiya** | **Tacikis-tan** | **Türk-mənistan** | **Özbəkis-tan** | **Ukrayna** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul | 105,0 | 108,7[1] | 104,0 | 104,7 | 108,6 | 100,7[1] | 103,6[1]* | 108,3[1,2] | 106,3 | 106,0[1] | … |
| Sənaye məhsulunun ümumi həcmi | 100,1 | 128,9 | 107,1 | 104,6 | 107,8 | 97,0[3] | 106,6 | 109,6 | … | 116,4 | … |
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi | 97,5 | 99,6 | 106,2 | 102,3 | 108,9 | 98,1 | 119,4 | 101,0 | … | 114,0 | … |
| Əsas kapitala yönəldilmiş vəsaitlər | 115,5 | 110,8 | 103,4 | 113,7[1] | 155,0 | 99,0[1] | 109,8[1,4] | 143,2 | … | 122,1[1] | … |
| Ümumi istifadədə olan dəmir yolu ilə yük daşınması | 102,7 | 35,6 | … | 93,9 | 100,6 | 103,5[1] | 97,0 | 107,9 | … | … | … |
| Pərakəndə əmtəə dövriyyəsi | 103,5 | 104,4 | 112,6 | 104,7 | 116,2 | … | 110,7 | 118,1 | … | … | … |
| o cümlədən satış müəssisələrinin pərakəndə əmtəə dövriyyəsi | 103,7 | 104,5 | 113,6 | 109,9 | 117,9 | … | 111,4 | 113,5 | … | … | … |
| İstehlak qiymətlərinin indeksi | 101,3 | 98,7 | 105,7 | 109,4 | 105,5 | 104,4 | 107,6 | 104,3 | … | 108,5 | … |
| Əhalinin gəlirləri (faktiki qiymətlərlə) | 104,7[5] | … | 113,2[3] | … | … | … | 110,7* | … | … | … | … |
| Əhalinin mal alınması və xidmətlərə xərcləri (faktiki qiymətlərlə) | 105,1[5] | … | … | … | … | … | 111,3* | … | … | … | … |
| Sərəncamda qalan real gəlirlər | 103,1[5] | … | 105,1[3] | … | … | … | 105,4* | … | … | … | … |
| İqtisadiyyatda işləyənlərin orta aylıq əməkhaqqı | 110,1[3] | 108,2 | 119,3 | 116,2[6] | 112,7[3] | 117,3[1] | 116,6[3] | 113,3[3] | … | … | … |
| İşçi qüvvəsinin müayinəsi əsasında işsizlərin ümumi sayı | … | … | 95,8[1] | … | … | … | 80,0[7] | … | … | … | … |
| Məşğulluq xidməti orqanlarından rəsmi qeydiyyatdan keçmiş işsizlərin sayı ( dövrün sonuna) | 77,4 | 96,1 | 72,4 | 112,6 | 88,0 | 31,2 | 73,6[7] | 94,1[3] | … | … | … |

…ardı

## 2024-cü ilin yanvar-fevral aylarında MDB ölkələri üzrə əsas sosial-iqtisadi göstəricilər

(ötən ilin müvafiq dövrünə nisbətən faizlə; dəyər ifadəsində göstəricilər sabit qiymətlərlə;
milli statistika xidmətlərinin məlumatlarına əsasən)

| | Azərbaycan | Ermənistan | Belarus | Qazaxıs-tan | Qırğızıs-tan | Moldova | Rusiya | Tacikis-tan | Türk-mənistan | Özbəkis-tan | Ukrayna |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İxrac (faktiki qiymətlərlə)-cəmi | 87,2[8)] | 2,6 d. | 102,4[3)] | 98,2[3)] | 146,6[3)] | 93,5[1)] | 85,8[3)] | 2,2 d. | … | 41,4[3)] | … |
| o cümlədən | | | | | | | | | | | |
| MDB dövlətlərinə | 90,5 | 99,7 | 96,4 | 80,8 | 73,8 | 86,0 | … | 78,6 | … | 106,2 | … |
| MDB üzvü olmayan dövlətlərə | 87,3 | 4,4 d. | 115,4 | 103,4 | 357,9 | 95,8 | … | 3,5 d. | … | 27,4 | … |
| İdxal (faktiki qiymətlərlə)- cəmi | 70,3[8)] | 173,2 | 100,0[3)] | 97,9[3)] | 135,1[3)] | 94,1[1)] | 89,4[3)] | 125,9 | … | 101,6[3)] | … |
| o cümlədən | | | | | | | | | … | | |
| MDB dövlətlərindən | 73,2 | 3,4 d. | 108,9 | 92,7 | 110,8 | 73,7 | … | 125,8 | … | 101,9 | … |
| MDB üzvü olmayan dövlətlərdən | 69,4 | 101,2 | 89,9 | 100,4 | 146,8 | 100,4 | … | 126,1 | … | 101,4 | … |

1) 2023-cü ilin yanvar-dekabrı 2022-ci ilin yanvar-dekabrına nisbətən.
2) Tacikistan Respublikasının İqtisadi İnkişaf və Ticarət Nazirliyinin məlumatlarına əsasən.
3) 2024-cü ilin yanvarı 2023-cü ilin yanvarına nisbətən.
4) Operativ məlumatlar
5) Milli hesablar sisteminin metodologiyasına əsasən.
6) 2023-cü ilin IV rübü 2022-ci ilin IV rübünə nisbətən.
7) 2024-cü ilin fevralı 2023-cü ilin fevralına nisbətən.
8) 2024-cü ilin yanvarı 2023-cü ilin yanvarına nisbətən. Müqayisəli qiymətlərlə verilir.
* Qiymətləndirmə
Qeyd: Türkmənistan üzrə isə ölkənin dövlət orqanının saytından götürülmüşdür. MDB Statistika Komitəsi 2022-ci ilin dekabr ayından Ukrayna üzrə məlumatları əldə etmir.

# METODOLOJİ İZAHLAR

**Ümumi daxili məhsul (ÜDM)** milli hesablar sisteminin ən mühüm göstəricilərindən biridir. ÜDM həm istehsal, həm də xidmətlər sahələrində rezident vahidlərin iqtisadi fəaliyyətinin son nəticəsini xarakterizə edir və bu vahidlərin son istehlak üçün məhsul və xidmətlər istehsalı üzrə yaratdığı əlavə dəyərlə ölçülür (istehsal üsulu). ÜDM hesabat dövründə istehsal edilmiş məhsul və xidmətlərin ümumi dəyərindən istehsal prosesinə sərf etdilmiş aralıq xərclər istisna edildikdən sonra əldə edilmiş ümumi əlavə dəyərə məhsula və idxala xalis vergilər əlavə edilməklə hesablanır.

**ÜDM-in baza dövrünə nisbətən artım sürəti (fiziki həcm indeksi)-** ÜDM-in baza dövrünün qiymətləri ilə qiymətləndirilmiş cari dövrdəki dəyərinin onun baza dövründəki dəyərinə bölünməsi yolu ilə alınır.

ÜDM ölkədə məhsul və xidmətlər istehsalçıları arasında bölüşdürülən ilkin gəlirlərin, yəni muzdlu işçilərə verilən əməkhaqqının, istehsala və idxala görə xalis vergilərin, ümumi mənfəətin və ümumi qarışıq gəlirlərin məbləği, başqa sözlə desək gəlirlər üsulu ilə də müəyyənləşdirilə bilər.

Ümumi daxili məhsuldan istifadə edilməsi (xərclər üsulu) məhsul və xidmətlərin son istehlakını, əsas kapitalın ümumi yığımını, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsini, qiymətlilərin (sərvətlərin) xalis əldə edilməsini və məhsul və xidmətlərin ixrac və idxal saldosunu özündə birləşdirir.

**Məhsula və idxala xalis vergilər** - subsidiyalar çıxılmaqla məhsula və idxala vergilərdir.

**Məhsula görə vergi və idxal (ixrac) vergiləri**. Məhsula görə vergilər adətən məhsul və ya xidmət vahidinə görə, yəni rezidentlər tərəfindən istehsal edilən, satılan və ya idxal edilən məhsul və xidmətlərin miqdarına, yaxud dəyərinə mütənasib olaraq alınan vergilərdir. Onlara əsasən aşağıdakı vergilər aid edilir:

-əlavə dəyər vergisi (ƏDV);

-aksizlər ;

-idxal və ixrac vergiləri, gömrük rüsumları.

**Əhalinin hər nəfərinə düşən ÜDM-** ÜDM-in ümumi həcmini ölkə əhalisinin dövr üzrə orta sayına bölməklə hesablanır.

**Sənaye fəaliyyəti** - "mədənçıxarma sənayesi", "emal sənayesi", "elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı" və "su təchizatı, tullantıların təmizlənməsi və emalı" kimi fəaliyyət növləri ilə əhatə olunur.

**Dəyər ifadəsində sənaye məhsulunun həcmi** - əsas fəaliyyəti sənaye olan müəssisələr (hüquqi şəxslər) və onların ayrı-ayrı xüsusiləşdirilmiş bölmələri, hüquqi şəxs yaratmadan sənaye fəaliyyəti göstərən fərdi sahibkarlar tərəfindən, habelə ev təsərrüffatları tərəfindən satılmaq üçün istifadə olunmuş sənaye məhsulunun, sənaye xarakterli işlərin, xidmətlərin dəyəridir. Bura sənaye müəssisəsinin və fərdi sahibkarın bütün bölmələri tərəfindən kənara satılmış, özünün əsaslı tikintisinə və qeyri-sənaye bölmələrinə verilmiş, özünün əsas fondlarının (vəsaitlərinin) tərkibinə daxil edilmiş, eləcə də əmək haqqı kimi öz işçilərinə verilmiş məmulat və məhsulların dəyəri, həmçinin hesabat dövründə və ya əvvəllər istehsal olunmasından asılı olmayaraq hesabat dövründə kənara, özünün əsaslı tikintisinə və qeyri-sənaye bölmələrinə satılmış özünün istehsalı olan yarımfabrikatların dəyəri daxil edilir. Dəyəri hazır məhsulun istehsalçısı tərəfindən ödənilməyən xammal və materiallardan hazırlanan məmulat bu xammal və materialların dəyəri çıxılmaqla faktiki qüvvədə olan buraxılış qiymətləri ilə sənaye məhsulunun dəyərinə daxil edilir. Sənaye müəssisələrində məhsulun dəyəri zavoddaxili dövriyyənin dəyəri nəzərə alınmadan zavod metodu ilə müəyyən edilir.

Sahibkarlıq subyektlərinin üzərinə düşən informasiya yükü nəzərə alınaraq mikro sahibkarlıq subyektləri üzrə rəsmi statistika hesabatlarının təqdim edilməsi dövriliyi rüblük müəyyən edilmişdir.

Bununla əlaqədar aylıq dövrilik üzrə məlumatların tamlığını təmin etmək məqsədilə mikro sahibkarlıq subyektləri üzrə əvvəlki hesabat rübü üzrə əldə edilmiş məlumatlar əsasında növbəti ay üzrə müvafiq qiymətləndirmə aparılmışdır.

**Neft-qaz sektorunda məhsul istehsalı** - xam neftin, təbii (yanar) qazın hasilatı, bu sahədə xidmətlərin göstərilməsi

və quyuların qazılması, təmizlənmiş neft məhsullarının istehsalı sahələrində məhsul istehsalıdır.

**Qeyri neft-qaz sektorunda sənaye məhsulunun istehsalı** - neft-qaz sektoru üzrə istehsal olunmuş məhsullar istisna olmaqla, sənayenin digər sahələrində məhsul istehsalıdır.

**Sənaye istehsalı indeksi** - dəyər ifadəsində sənaye məhsulunun həcminin dəyişməsinin dinamikasını xarakterizə edir. Sənaye statistikasında tətbiq edilən metodologiyaya görə, artım (azalma) sürətləri məhsulun natura ifadəsində istehsalına əsaslanmaqla yanaşı aqreqasiya zamanı çəkilər sistemində dəyər ifadəsində "əlavə dəyər" göstəricisi istifadə olunur.

Sənaye istehsalı indeksinin hesablanmasında mikro sahibkarlıq subyektləri üzrə məlumatlar yalnız rüblük dövrilikdə nəzərə alınır.

**Əsas kapitala yönəldilmiş investisiyalar** - bütün növ əsas fondların alınmasına, yaradılmasına və təkrar istehsalına, habelə maddi istehsalın digər formada inkişafına yönəldilmiş kapital qoyuluşlarının məcmusudur. Əsas kapitala yönəldilmiş investisiyalar - tikinti-quraşdırma işlərinə, quraşdırılması tələb olunan və ya tələb olunmayan, tikili və obyektlərin smetasına daxil olan və ya daxil olmayan maşın və avadanlıqların alınmasına və quraşdırılmasına, işçi və məhsuldar heyvanların alınmasına, çoxillik əkmələrin və meşə zolaqlarının salınmasına, istehsal olunmayan aktivlərə mülkiyyət hüququnun verilməsinə, qeyri-maddi əsas fondların (layihə-axtarış işləri, proqram təminatı, məlumat bazası, incəsənət və əyləncəli janr əsərlərinin orijinalları və s.) alınmasına və hazırlanmasına, əsas fondların dəyərinin artırılmasına yönəldilən sair işlərin yerinə yetirilməsinə sərf edilən xərclərin cəmindən ibarətdir.

Sahibkarlıq subyektlərinin üzərinə düşən informasiya yükü nəzərə alınaraq mikro sahibkarlıq subyektləri üzrə rəsmi statistika hesabatlarının təqdim edilməsi dövriliyi rüblük müəyyən edilmişdir. Bununla əlaqədar aylıq dövrilik üzrə məlumatların tamlığını təmin etmək məqsədilə mikro sahibkarlıq subyektləri üzrə əvvəlki hesabat rübü üzrə əldə

edilmiş məlumatlar əsasında növbəti ay üzrə müvafiq qiymətləndirmə aparılır.

**Tikinti-quraşdırma işlərinə sərf edilən vəsait** - tikinti layihəsində nəzərdə tutulmuş işlərin, o cümlədən tamamlama və abadlıq işlərinin yerinə yetirilməsi nəticəsində obyektin inşası və ya təmiri, yenidən qurulması yaxud bərpası işlərinin yerinə yetirilməsinə sərf edilən xərclərin cəmindən ibarətdir.

**Məhsul istehsalı sahələrinə yönəldilmiş investisiyalar** - sənaye, kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq və tikinti (mənzil tikintisi istisna olmaqla) fəaliyyət sahələrinə yönəldilmiş investisiyalardır.

**Xidmət sahələrinə yönəldilmiş investisiyalar** - ticarət, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə, daşınmaz əmlak, təhsil, səhiyyə, istirahət, əyləncə, incəsənət və digər xidmət sahələrinə yönəldilmiş investisiyalardır.

**Yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyalar** – çoxmənzilli binaların, fərdi yaşayış və bağ evlərinin tikintisinə yönəldilmiş investisiyalardır.

**Neft-qaz sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyalar** - xam neftin, təbii (yanar) qazın hasilatı, bu sahədə xidmətlərin göstərilməsi və quyuların qazılması, təmizlənmiş neft məhsullarının istehsalı ilə əlaqədar əsas kapitala yönəldilmiş investisiyalardır.

**Qeyri neft-qaz sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyalar** - neft-qaz sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyalar istisna olmaqla, ölkə iqtisadiyyatının digər sahələrində əsas kapitala yönəldilmiş investisiyalardır.

**Əsas kapitala yönəldilmiş xarici investisiyalar** - investisiya fəaliyyətini həyata keçirən əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin və onların filial və nümayəndəliklərinin, beynəlxalq təşkilatların vəsaiti hesabına bütün növ əsas fondların alınmasına, yaradılmasına və təkrar istehsalına, habelə maddi istehsalın digər formada inkişafına yönəldilmiş kapital qoyuluşlarının məcmusudur.

**Əsas kapitala yönəldilmiş daxili investisiyalar** - investisiya fəaliyyətini həyata keçirən Azərbaycan Respublikasının vətəndaşı və Azərbaycan Respublikasının hüquqi şəxsi tərəfindən bütün növ əsas fondların alınmasına,

yaradılmasına və təkrar istehsalına, habelə maddi istehsalın digər formada inkişafına yönəldilmiş kapital qoyuluşlarının məcmusudur.

**Kənd təsərrüfatı –** kənd təsərrüfatı bitkilərinin becərilməsi və kənd təsərrüfatı heyvanlarının yetişdirilməsi əsasında yeyinti məhsulları və sənaye üçün xammal mənbəyi olan iqtisadiyyat sahəsidir. Heyvandarlıq və bitkiçilik (əkinçilik) kimi altsahələri vardır.

**Kənd, meşə və balıqçılıq təsərrüfatının ümumi məhsulu** dedikdə, bu sahədə (kənd, meşə və balıqçılıq) həm satış, həm də şəxsi istehlak məqsədilə istehsal edilmiş məhsul və xidmətlərin ümumi dəyəri nəzərdə tutulur. O, bitkiçilik və heyvandarlıqda, ovçuluq, meşəçilik və balıqçılıq təsərrüfatlarında istehsal olunmuş məhsulların (xidmətlərin) dəyəri əsasında formalaşır.

**Bitkiçilik və heyvandarlığın ümumi məhsuluna** istehsal olunmuş bitkiçilik və heyvandarlıq məhsullarının dəyəri daxil edilir.

**İstehsal olunmuş bitkiçilik məhsulunun dəyərinə** kənd təsərrüfatı bitkiləri məhsullarının – dənli və dənli paxlalı bitkilərin, texniki bitkilərin (yağlı bitkilərin toxumları, şəkər çuğunduru, tütün və s.), kartof, tərəvəz və bostan bitkilərinin, meyvə və giləmeyvənin, digər bitkiçilik məsullarının dəyəri daxil edilir.

**Heyvandarlıqda istehsal olunmuş məhsulların dəyəri** kənd təsərrüfatı heyvanları və quşlarının saxlanması və təsərrüfatdaxili istifadəsi zamanı alınmış xam məhsulların (süd, yumurta, yun və s.) dəyəri, kəsim üçün satılmış mal-qara və quşların dəyəri, habelə baramaçılıq, arıçılıq və s. heyvanların məhsullarının dəyəri daxil edilir.

**Kənd təsərrüfatı məhsullarının fiziki həcm indeksinin** hesablanması üçün müqayisəli qiymətlər əsasında onların ümumi istehsal həcmi göstəricilərindən istifadə olunur.

**Kənd təsərrüfatı bitkiləri məhsullarının ümumi yığımı** bütün əkin sahələrindən istehsal olunmuş (faktiki yığılmış) məhsulların həcmidir. Ayrı-ayrı bitkilər (kartof, şəkər çuğunduru, günəbaxan və s.) və ya bitki qrupları (dənli və dənli paxlalı bitkilər, tərəvəz, bostan və s.) üzrə hesablanır.

**Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı** – orta hesabla bir hektar yığım sahəsindən əldə edilmiş məhsulun səviyyəsini xarakterizə edir. Bu göstərici, bir qayda olaraq, sentnerlə hesablanır.

**Heyvandarlıq məhsullarının istehsalı** barədə məlumatlar kənd təsərrüfatı müəssisələri üzrə statistik hesabatlara, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə isə aparılan seçmə müayinə məlumatlarının əsasında müəyyən edilir. **Ət istehsalına** bütün növ mal-qara və quşların əti, piyi və içalatı daxildir. Məlumatlara həm sənaye üsulu ilə, həm də təsərrüfatdaxili kəsilmiş mal-qara və quşlar daxil edilir. **Süd istehsalı** inək, camış, qoyun və keçilərdən faktiki süd sağımını xarakterizə edir. Bura satılmış və təsərrüfatlarda istifadə edilmiş, balaların içirdilməsinə və sair məqsədlərə sərf olunmuş südün hamısı daxildir. **Yumurta istehsalı** cücə istehsalına (inkubasiyaya və s.) istifadə edilənlər də daxil olmaqla, bütün növ ev quşlarından alınmış yumurtanı əks etdirir. **Yun istehsalı** satılması və təsərrüfatda başqa məqsədlər üçün istifadə edilməsindən asılı olmayaraq, qoyun və keçilərdən qırxılmış bütün yunları, keçi qəzilini, habelə dəvə yununu əhatə edir. Bütün yunlar fiziki çəkidə, qırxımdan sonra yuyulmamış halda uçota alınır.

**Mal-qara və quşların baş sayı** əsas növlər üzrə (iribuynuzlu mal-qara, o cümlədən inək və camışlar, donuz, qoyun və keçi, at, quş və s.) hesablanır və hesabat dövründən sonrakı ayın 1-nə olan vəziyyətə görə yazılır. Məlumatlar rüblük hesablanır. Mal-qara və quşların baş sayı statistik uçot və hesabat məlumatlarına əsasən müəyyən edilir.

**Nəqliyyat sektorunda yük daşınması** - mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq əsas fəaliyyəti nəqliyyat işi olan hüquqi şəxslər-müəssisələr və hüquqi şəxs yaratmadan avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən kommersiya məqsədilə daşınmış yüklərin həcmidir.

**Nəqliyyat sektorunda yük dövriyyəsi** - nəqliyyat müəssisələri və hüquqi şəxs yaratmadan avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslərin-fərdi sahibkarların nəqliyyat vasitələrinin daşıdığı yükün həcmini daşınmış

məsafə ilə əlaqədə ton-kilometrlərlə ifadə edir. Bu göstərici hər bir reys üzrə daşınmış yüklərin miqdarının onların daşınma məsafəsinəvurulmasından alınan hasillərin cəmi kimi hesablanır.

**Nəqliyyat sektorunda sərnişin daşınması** - ölkə ərazisində və beynəlxalq marşrutlarda bütün növlərdən olan qatarlar, gəmilər, avtobus, taksi, təyyarə və vertolyotlar, habelə metro vasitəsilə kommersiya əsasında daşınmış sərnişinlərin sayını əhatə edir. Sərnişin daşınmasının həcminə, gediş haqqını almaq üçün tətbiq edilən tarif dərəcəsindən asılı olmayaraq, ölkə daxilində və beynəlxalq xətlərdə daşınmış sərnişinlərin hamısı (pulsuz getmək hüququ olan sərnişinləri də daxil etmək şərti ilə) daxildir.

**Nəqliyyat sektorunda sərnişin dövriyyəsi** – sərnişindaşıma nəqliyyatının işinin həcmini məsafə ilə xarakterizə edir və sərnişin-kilometrlə ölçülür. Sərnişin dövriyyəsi daşınmış sərnişinlərin sayını onların daşınma məsafəsinə vurmaq yolu ilə hesablanır.

**İnformasiya və rabitə xidmətlərindən əldə edilən gəlir -** informasiya və rabitə müəssisəsinin əsas fəaliyyətindən əldə olunan gəlirlərin ümumi həcmidir. Bu göstərici əhaliyə, idarə, müəssisə və təşkilatlara göstərilmiş xidmətlər müqabilində informasiya və rabitə müəssisəsinin əldə etdiyi pul vəsaitinin cəmini xarakterizə edir. Milli hesablar sisteminin tələblərinə uyğun olaraq digər iqtisadi sahələrdə olduğu kimi, informasiya və rabitə müəssisələri üzrə də "informasiya və rabitə xidmətlərindən əldə olunmuş gəlir" göstəricisi formalaşdırılarkən ümumi gəlirin həcmi mal və xidmətlərin satışından əldə edilən vəsaitin müəssisələrin (idarənin, təşkilatın və s.) hesablaşma hesabına daxil olmasından asılı olmayaraq onun yaranması anındakı vəziyyətinə uyğun müəyyən edilir. Yəni bu göstərici hesablanarkən əldə olunan faktiki gəlirin məbləği deyil, hesabat dövründə göstərilən xidmətlərə görə hesablanmış məbləğ əsas götürülür.

**Pərakəndə ticarət dövriyyəsi –** əsasən əhaliyə onun istifadəsi və ya istehlakı üçün yeni və ya istifadə olunmuş malların emal edilmədən satışını əks etdirir.

**Topdansatış ticarət dövriyyəsi** - yeni və ya istifadə olunmuş malların pərakəndə ticarət, sənaye, kommersiya müəssisələrinə, institusional və ya peşəkar istehlakçılara, digər topdansatış ticarətçilərinə, həmçinin malların alqı-satqısı zamanı bu kimi şəxslərin və şirkətlərin adından çıxış edən agent və ya vasitəçilərə emal edilmədən təkrar satışını ifadə edir.

**Ticarət dövriyyəsinin müqayisəli qiymətlərlə indeksi** - məhsullar üzrə istehlak qiymətləri indeksi tətbiq edilməklə deflyasiya olunmuş cari göstəricinin baza göstəricisi ilə müqayisə edilməsi əsasında hesablanır. Ticarət dövriyyəsinin fiziki həcm indeksi qiymət dəyişikliklərinin təsiri istisna edilməklə fiziki həcmdəki dəyişikliyin dövriyyəyə təsirini ifadə edir.

**İctimai iaşə dövriyyəsi** - iaşə şəbəkələri vasitəsi ilə kulinariya məhsulları, xörəklər, yarımfabrikatlar, həmçinin aşpazlıq emalından keçməmiş digər əmtəələrin əhaliyə satışını əks etdirir.

**Əhaliyə göstərilən ödənişli xidmətlər** - əhalinin sifarişi ilə, onun şəxsi tələbatını ödəmək üçün göstərilən və haqqı əhali tərəfindən ödənilən xidmətlərin dəyərini əks etdirir.

**İstehlak qiymətləri indeksi (İQİ)** - orta alıcılıq qabiliyyətli alıcının aldığı malların və istifadə etdiyi xidmətlərin qeydə alınmış məcmusunun dəyərinin ümumi dəyişməsini səciyyələndirən nisbi göstəricidir. Bu göstərici müəyyən dövr ərzində istehlak edilən malların və xidmətlərin dəyişməz qaldığı şəraitdə əhalinin istehlak xərclərinin ümumi məbləğinin dəyişməsini əks etdirir. İQİ-nin başlıca təyinatlı istehlak mallarının və xidmətlərin qiymət dinamikasının müəyyənləşdirilməsidir.

İQİ-dən milli hesablar sistemi göstəricilərinin müəyyənləşdirilməsində, ümumi daxili məhsulun son istifadəsinin ən mühüm komponentlərindən olan ev təsərrüfatlarının son istehlakına çəkilən xərclərin sabit qiymətlərdə hesablanmasında, eləcə də əhalinin real gəlirlərinin və digər göstəricilərin hesablanmasında istifadə olunur.

**Orta illik istehlak qiymətləri indeksi** - hesabat dövrünün orta qiymət dəyişməsinin əvvəlki ilin müvafiq dövrünün orta qiymət dəyişməsinə nisbətini göstərir.

**İllik istehlak qiymətləri indeksi** – hesabat ayının orta qiymət dəyişməsinin əvvəlki ilin müvafiq ayının orta qiymət dəyişməsinə nisbətini göstərir.

**Sənaye məhsullarının istehsalçı qiymət indeksləri (SQİ)** - sənaye müəssisələri tərəfindən istehsal olunan və satılan sənaye məhsullarının qiymətlərinin səviyyəsi və dinamikasını xarakterizə edir. Sənaye məhsullarının istehsalçı qiymətlərinin müşahidəsi İqtisadi Fəaliyyət Növləri Təsnifatının Mədənçıxarma sənayesi, Emal sənayesi, Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, Su təchizatı; tullantıların təmizlənməsi və emalı sektorlarına uyğun olaraq aparılır. İstehsalçı qiymətinə əlavə dəyər vergisi, aksizlər və s. vergi ödəmələri, məhsulun maya dəyərinə aid olmayan daşınma xərcləri aid edilmir.

**Kənd təsərrüfatı, balıqçılıq və meşə təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksləri (KTQİ)** - kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları tərəfindən satılan kənd təsərrüfatı məhsullarının qiymətlərinin səviyyəsi və dinamikasını xarakterizə edir. Kənd təsərrüfatı məhsullarının qiymətlərinin müşahidəsi kənd təsərrüfatı müəssisələrinin, fərdi sahibkarların, ailə kəndli və ev təsərrüfatlarının seçmə şəbəkəsi üzrə həyata keçirilir.

**Tikinti-quraşdırma işlərində istehsalçı qiymət indeksi** - “Tikinti” iqtisadi fəaliyyət növünü xarakterizə edən qiymət statistikası göstəricilərindən biri hesab olunur və “tərkib elementləri” metodu ilə hesablanır. Tikinti-quraşdırma işlərində qiymətlərin müşahidəsi yaşayış evlərinin, sosial təyinatlı binaların, istehsal təyinatlı obyektlərin, yol və körpülərin tikintisi sahəsində həyata keçirilən tikinti işləri (xidmətləri) üzrə aparılır.

**Nəqliyyat, anbar təsərrüfatı, poçt, rabitə, İKT və reklam xidmətlərinin istehsalçı qiymət indeksləri** - nəqliyyatda yükdaşıma və sərnişindaşıma, anbar təsərrüfatı, yardımçı nəqliyyat, poçt, kuryer, rabitə, İKT və reklam

sahəsində göstərilən xidmətlərin qiymətlərinin səviyyəsi və dinamıkasını xarakterizə edir.

**İxrac əməliyyatlarının qiymət indeksi** ölkədə istehsal olunmuş və ya başqa ölkələrdən gətirilərək ölkə sərhədlərindən kənara göndərilmiş malların qiymətlərindəki dəyişiklikləri xarakterizə edir. Gömrük rüsumları nəzərə alınmadan özündə malın dəyərini, çatdırılma və gəminin göyərtəsinə yükləmə xərclərini əks etdirən FOB qiymətləri onu şərtləndirən əsas amildir.

**İdxal əməliyyatlarının qiymət indeksi** ölkədə istehlak edilmək üçün, həmçinin təkrar ixrac etmək üçün ölkə sərhədlərindən kənardan alınan malların qiymətlərindəki dəyişiklikləri xarakterizə edir. Gömrük rüsumları nəzərə alınmadan özündə malın dəyərini, idxalatçı ölkənin sərhədlərinə kimi sığorta və yükdaşıma xərclərini əks etdirən CİF qiymətləri onu şərtləndirən əsas amildir.

**İqtisadi fəal əhali (işçi qüvvəsi)** – məşğul və işsiz əhalinin ümumi sayıdır.

**İqtisadi qeyri-fəal əhali –** məşğul olmayan, müəyyən dövr ərzində iş axtarmayan və işə başlamağa hazır olmayan 15 və yuxarı yaşda olan şəxslərdir.

**Məşğul əhali** – müəyyən olunmuş həftə ərzində (müayinə həftəsində) haqqı ödənilmək və ya qazanc (gəlir) əldə etmək müqabilində heç olmasa bir saat hər hansı əmək fəaliyyəti ilə məşğul olan 15 və yuxarı yaşda olan şəxslərdir.

**İşsiz əhali** – müəyyən olunmuş həftə ərzində (müayinə həftəsində) işi və qazancı (gəliri) olmayan, müayinə həftəsindən əvvəlki son dörd həftə (və ya bir ay) ərzində ödənişli və ya gəlir gətirən hər hansı işlə məşğul olmaq üçün iş axtaran, müayinə həftəsində və ya sonrakı iki həftə ərzində işə başlamağa hazır olan əmək qabiliyyətli yaşda olan şəxslərdir.

**İşsizliyin səviyyəsi –** işsiz əhalinin sayının iqtisadi fəal əhalinin sayında faizlə ölçülən xüsusi çəkisidir.

**Büdcə** - Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir.

**Büdcə gəlirləri** - Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalardır.

**Büdcə xərcləri** - büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsaitdir.

**Büdcə kəsiri (defisit)** - büdcə xərclərinin gəlirlərlə təmin olunmayan məbləğidir.

**Büdcə artıqlığı (profisit)** - büdcə gəlirlərinin büdcə xərclərindən artıq olan məbləğidir.

**Bank** - fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir.

**Depozit** - müvafiq müqavilə şərtləri ilə faizlər və ya komisyon haqqlar ödənilməklə və ya ödənilmədən müştərilərin (əmanətçilərin) tələbi ilə qaytarılmasını və ya başqa hesaba köçürülməsini nəzərdə tutan bankın balansında aparılan cari, əmanət (depozit) və ya digər hesaba qoyulmuş və ya köçürülmüş pul vəsaitidir (elektron pulun emissiya edilməsi üçün qəbul edilmiş pul vəsaitləri istisna olmaqla)

**Bank krediti** - bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə və faizlər və (və ya) müqavilədə göstərilən digər ödənişlər ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir.

**Bank olmayan kredit təşkilatı -** xüsusi razılıq (lisenziya) əsasında kreditlərin verilməsi və "Bank olmayan kredit təşkilatları haqqında" Qanunla nəzərdə tutulmuş digər fəaliyyət növlərini həyata keçirən ixtisaslaşmış kredit təşkilatıdır.

**Kredit ittifaqı** - mənafe ümumiliyi əsasında könüllü birləşən fiziki şəxslərin və (və ya) kiçik sahibkarlıq subyekti

olan hüquqi şəxslərin sərbəst pul vəsaitlərini cəmləşdirmək yolu ilə özlərinin qarşılıqlı kreditləşdirilməsi üçün yaratdıqları bank olmayan kredit təşkilatıdır.

**Qiymətli kağızlar bazarı** – qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, mülkiyyətçiliyi, saxlanılması, kompensasiyası, öhdəliklərlə yüklənməsi, tənzimlənməsi və digər əməliyyatların həyata keçirilməsi üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusudur.

**Dövlət qiymətli kağızları** - müvafiq icra hakimiyyəti orqanı və müvafiq qaydada buna səlahiyyətləndirilmiş qurum tərəfindən buraxılan qiymətli kağızlardır

**Səhm** – sahibinə hər hansı bir müəssisənin aktivlərində müəyyən bir paya sahiblik və payına uyğun olaraq müəssisənin gəlirinin bir hissəsinin divident şəklində əldə etmək hüququ verən qiymətli kağızdır.

**Dövlət istiqrazı** – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən büdcə kəsirinin maliyyələşdirilməsi məqsədi ilə buraxılan istiqrazdır.

**Korporativ istiqraz** - özəl müəssisə tərəfindən əlavə vəsait cəlb etmək məqsədi ilə emissiya edilən borc qiymətli kağızıdır

**Mərkəzi Bankın notları** - Mərkəzi Bank tərəfindən bir ilədək müddətinə buraxılan adlı sənədsiz dövlət güzəştli qiymətli kağızlarıdır.

**İxrac** - ölkədə istehsal olunmuş və ya başqa ölkələrdən gətirilmiş malların (təkrar ixrac) ölkə sərhədlərindən kənara göndərilməsidir. Ölkənin öz istehsalı sayılan mallara, həmçinin ölkəyə gətirilən və təkrar emal olunaraq əsas kəmiyyət və keyfiyyət göstəricilərini dəyişən xarici mənşəli mallar da daxil edilir.

**İdxal** - ölkədə istehlak etmək və ya təkrar ixrac edilmək üçün ölkə sərhədlərindən kənardan mal gətirilməsidir.

**Xarici ticarət dövriyyəsi** - idxal və ixracın dəyərinin cəmidir.

**Xarici ticarət saldosu** - ixrac və idxalın fərqidir. Əgər ixrac idxaldan çoxdursa müsbət saldo, idxal ixracdan çoxdursa mənfi saldo alınır.

**Əhalinin gəlirləri** – hesabat dövrü ərzində ölkə əhalisinin (hüquqi şəxs yaratmadan fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslər də daxil olmaqla) əmək ödənişləri, sahibkarlıq fəaliyyəti və mülkiyyətdən gəlirlərini, pul və natura şəklində aldıqları carı transferləri və digər daxilolmalarını əks etdirən, əhalinin həyat səviyyəsini səciyyələndirən mühüm makroiqtisadi göstəricilərdəndir. Bu göstəriciyə ev təsərrüfatlarının şəxsi istehlak məqsədilə istehsal etdikləri məhsulun, həmçinin mənzil sahiblərinin şərti hesablanmış xidmət haqlarının dəyəri də daxil edilir.

**Əhalinin sərəncamda qalan gəlirləri** – cari transferlər, o cümlədən vergilər, digər mütləq ödəmələr, könüllü üzvlük haqları, sosial sığorta ayırmaları çıxıldıqdan sonra əhalinin sərəncamında qalan gəlirlərdir.

**Əhalinin hər nəfərə düşən gəlirləri** - əhalinin gəlirlərinin ümumi məbləğinin ölkə əhalisinin dövr üzrə orta sayına bölməklə hesablanır.

**Orta aylıq nominal əməkhaqqı –** hesablanmış əməkhaqqı fondunun faktiki işləmiş muzdlu işçilərin orta siyahı sayına (sosial və ödənişsiz məzuniyyətdə olan şəxslər istisna olmaqla) bölünməsi ilə müəyyən edilir.

**Əhali sayının cari hesablanması** əhalinin son siyahıyaalmasının yekunları əsasında aparılır və hər il bu ərazidə doğulanların və daimi yaşamaq üçün bu əraziyə gələnlərin sayı əhalinin sayına əlavə edilir, ölənlərin və bu ərazidən köçənlərin sayı isə əhalinin sayından çıxılır. Əhalinin son siyahıyaalınmasının yekun məlumatları əsasında siyahıyaalmadan sonrakı dövrlər üzrə  əhalinin sayı və strukturunda , eləcə də bəzi nisbi göstöricilərdə  müvafiq dəqiqləşdirmələr aparılır.

Əhali yaşayış yerlərinə görə şəhər və kənd əhalisinə bölünür. Şəhər yerlərinə şəhərlər və qəsəbələr aid edilir, qalan bütün yaşayış məntəqələri isə kənd yerləri sayılır.

**Doğulanlar və ölənlər** haqqında məlumatlar Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən tərtib

edilən doğum və ölüm haqqında aktlarda olan məlumatların statistik cəhətdən hər ay işlənməsi əsasında əldə edilir. Doğulanların sayına yalnız diri doğulanların sayı daxil edilir.

**Əhalinin təbii artımı** – təqvim ilində diri doğulanların sayı ilə ölənlərin sayının fərqinə bərabərdir.

**Doğumun ümumi əmsalı** – uşaq doğumunun intensivliyini müəyyən edən göstəricidir. Təqvim ilində diri doğulanların sayının əhalinin orta illik sayına nisbəti ilə ölçülür, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Ölümün ümumi əmsalı** – əhali arasında ölümün intensivliyini müəyyən edən göstəricidir. Təqvim ilində, müvafiq olaraq ölənlərin sayının əhalinin orta illik sayına nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Təbii artımın əmsalı** – əhalinin təbii artımı nisbi göstəricilərlə də səciyyələndirilə bilər. Təbii artım əhalinin orta illik sayına bölünərək orta illik əhalinin hər 1000 nəfərinə hesablanır və ya doğumun və ölümün ümumi əmsallarının fərqi ilə müəyyən edilir.

**Ölümün səbəbləri** haqqında informasiya mənbəyi ölümə səbəb olmuş xəstəlik, bədbəxt hadisə, qətl, özünəqəsd, və digər xarici təsirlərlə əlaqədar olaraq səhiyyə müəssisələrində tərtib olunan ölüm haqqında tibbi şəhadətnamələrdəki qeydlərdən ibarətdir.

Ölüm haqqında məlumatların səbəblər üzrə kodlaşdırılması və işlənməsi xəstəliklərin, zədələr və ölümün səbəblərinin X baxılış Beynəlxalq Təsnifatına uyğun aparılır.

**Doğulanda gözlənilən ömür uzunluğu (0 yaş üçün)** – doğulanların hər birinin orta hesabla yaşaya biləcəyi illərin sayını göstərir. Burada doğulanların bütün ömrü boyu ölümün səviyyəsinin hər yaş qrupu üzrə göstəricinin hesablandığı ildəki səviyyədə dəyişməz qalacağı şərti qəbul edilir. Doğulanda gözlənilən ömür uzunluğu həyat cədvəllərinin hesablanması nəticəsində alınır.

**Nikah** kişi və qadının bir-birinə və uşaqlara qarşı hüquq və vəzifələrini müəyyənləşdirən münasibət formasıdır. Ər və arvad arasında hüquqi münasibət, onların nikahlarının Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində qeyd etdirilməsidir.

Əhalinin təbii hərəkətinin cari statistikası yalnız hüquqi cəhətdən qeyd olunmuş nikahları nəzərə alır. Əhalinin siyahıyaalınmasında isə rəsmi qeydə alınıb-alınmamasından asılı olmayaraq, faktiki nikahda olanlar da hesaba alınır.

**Nikahın ümumi əmsalı** – təqvim ilində qeydə alınmış nikahların sayının əhalinin orta illik sayına olan nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Boşanma (nikahın pozulması)** – birlikdə yaşayan ər-arvadın nikahlarının son hüquqi ləğvi tərəflərə təkrar nikaha daxil olmaq hüququ verir. Nikahın pozulma faktı Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində qeydiyyata alındıqdan sonra pozulmuş hesab olunur.

**Boşanmanın ümumi əmsalı** – təqvim ilində qeydə alınmış boşanmaların sayının əhalinin orta illik sayına nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.